Ziyad Quluzad**ə**

**Kəpənə**k ölümü



Mələyimə, bu dünyada yaşamaq üçün mənə yeganə bəhanə olan sevgilimə.
...sirli...
...kədərli...
...və üç nöqtələrlə dolu hədiyyə...

Mənə dedilər ki, ona minlərlə yol gedir. Elə həmin dəqiqə qorxdum. Boşluqda qanad çırpdıqca yan- yörəyə kiçik tozcuqlar yaydım.
Ona gedən yolların yarıda kəsilməsi heç kimi narahat etmirdi.
“Biz onu özümüzə hopdurmuşuq”,- deyirdi, paralel dünyadan olan filosof.
Mən də içimdə gizlənəni görmürdüm.
Allaha inana bilmirdim.
Onu danırdım. Inkar edirdim. Unudurdum. Günah çirkabını vücuduma yayırdım.
...ancaq bir gün...

HEÇ VAXT TAPILMAYACAQ CAVAB

*Məgər Allah öz seçdiklərini, gecə-gündüz Ondan imdad diləyənləri müdafiə etməyəcəkmi?*
*Onlar üçün çoxmu gecikəcək?..*
(MATTA 24:23-28, 37-41)

Başıma gəlmiş bəladan canımı qurtarmağın  yolunu tapmalıydım.
Çarəsizlik içində qıvrılırdım.
Televizorun səsi otağı doldurdu. Diksindim. Səsi azaltdım. Yorğundum. “LİDER TV”-də konsert gedirdi.
“Böyük, işıqlı səhnə. Röya hamilədir. Səhnədə balerina kimi rəqs edir. Ardınca Flora Kərimova  “Qarabağda bağım qaldı” mahnısını oxuyur. Tamaşaçı salonu boşalır. Növbəti kadrda gənclər əllərindəki telefonla Röyanı çəkirlər.
...göz qamaşdıran işıqlar...
...neon lampaların sirli fonu...
...məşhur olmaq üçün ləyaqətini satmış qadın...
...sovetin özü ilə birlikdə apardığı köhnə həyat...
...”Keçid dövrü”nün evlərimizə, beyinlərimizə doldurduğu yeni dəyərlər sistemi... ”
Televizoru söndürdüm.
Zaura necə deyəcəkdim? Hardan başlamalı idim? Həm də ki, Zaur inanmayacaqdı. Hələ 21-ci əsrdə, hamının Allahdan üz döndərdiyi bir vaxtda. Elə bir vaxtda ki, öz məqsədlərimiz uğrunda mübarizəmizdə qarşımıza Tanrı da çıxsa Onu gözlərinin içinə baxa-baxa əzə bilərik.

***

Hansınız ilahi möcüzəyə inanırsınız?
Məgər həyatımızda baş vermiş bütün möcüzələrə özümüz qədər bəsit cavab tapmamışıqmı?
NUO-lar insanların beynində çaşqınlıq yaratmaq üçün yerdə bəzi dəyişikliklər edirlər.
Tibbdə bunun əsaslandırması var. Spermaların səhv cütləşməsi insanlarda bu cür anormal hadisələr törədir.
Bəs Allah? Onu niyə xatırlamırsınız?
Mən möcüzələrə inanıram. Başıma gəlmiş hadisə isə mənə möcüzənin nə olduğunu görmək imkanı verdi. Yaşadığım möcüzəvi günə qədər bütün günahlarımı hiss etdim. Həmin günahları izləyən zaman keçirdiyim utancı

yenidən duydum. Keçmiş günlərimdən yaddaşımda ilişib qalan kədərli əhvalatları xatırladım. Ruhum utancından bəsirətini kor etdi. Üzünə ələk tutdu. Özünü çarmıxa çəkdi.
...bəzən onlar məni xoşbəxt etdi...
Yaddaşımın yada saldıqlarından utandığım da oldu, heyfsləndiyim də...
Nə qədər çarəsiz olsam da, Tanrının sevdiyi bəndələrinə hər zaman əl uzatdığına inanmışam. Bəs, görəsən, məni necə? Həyatının hər anı günah işləmiş bu "günahsız" Təhminəni özünə sevimli bəndə kimi qəbul edərmi?
Zaur məndən fərqli olaraq, bu dünyada hər şeyin insanın öz əlində olduğuna inanırdı. "Yolu da özün açırsan, addımını da özün atırsan. Heç kim, heç bir qüvvə bizim saat neçədə, harada olacağımızı yazmayıb. Hər şey öz əlimizdədir" - deyərdi. Mənim bir zamanlar inandığım həqiqəti müdafiə edərdi. Halbuki, mən yanılmırdım. Həyatımda baş vermiş hadisələr məni öz fikrimdən dönməyə məcbur etdi.
...düşüncələrim alt-üst oldu...
Öz yolunu özün necə çəkirsən? Bəs Allah? Onun müdaxiləsi yoxdur?
Nə bilim. Bəlkə də var imiş. Bəlkə də hər şey onun yazdıqları ilə həll olunurmuş. Kim əksini isbat edə bilər ki, onun xeyir və şər yazan mələkləri var. Və bəlkə də yoxdur. Bilmirəm. Maraqlanmıram.

Açar yerinin çevrildiyini, qapının asta-asta açıldığını eşitdim. Sonra ayaqqabılarını çıxardı. Qonaq otağının astanasında dayandı.
"Təhminə, yorğunam",- dedi. İçəri girdi. Noutbukunu masanın üstünə qoydu. Göz qapaqları bağlanırdı. Saçlarında adda-budda ağarmış tüklər parıldayırdı. Mənim Zaurum qocalırdımı?
Hə! Sürətlə fırlanan Yer kürəsi, zaman deyilən sirli həqiqət Zaurun saçlarındakı ağ tüklərdə, göz qapaqlarındakı qırışlarda özünü göstərirdi. Zaur yaşlanırdı. Təmiz, təravətli dərisi torpaq rəngi alırdı - susuz, cadar, boz...
- Çay içirsən?
- Hə.
Divana uzandı. Pultu götürüb televizoru yandırdı. ATV-də "Maqazin xəbərləri" gedirdi. O, belə verlişləri sevmir, *"Milləti manqurta çevirirlər"-* deyirdi. Ardınca da dərin "AH" çəkər, *"Tatuş, biz niyə beləyik?"-* deyərdi. Ancaq indi heç nə demədi. Kanalı dəyişdi.
Bəzən onun "millət", "xalq" haqqındakı dərdli-dərdli "ah-uf"ları o qədər həddini aşırdı ki, hamımızı bezdirirdi. Utandırırdı. Zülum verirdi.
"*Tatuş, bilmirsən... daha Allah heç nəyə qarışmır. Hər şeyi gizli təşkilatlar həll edir. Bizim taleyimizi də, alın yazımızı da onlar yazır..."*
Mənsə Allaha inanırdım. Bilirdim ki, O, nə vaxtsa əmin-amanlıq yaradacaq. Bəlkə də buna görə anamın O-nu inkar etməsini heç bir zaman anlaya

bilmədim!?.
"*Yox. Allah olan yerdə kimdir gizli təşkilat?"*- Sanki Allahın hüquqlarını müdafiə üçün başdan ayağa silahlanmışdım.
*"Onlar Allahı çoxdan öldürüblər",-* dedi.
Susdum. Onunla mübahisə həmişə bir neçə aylıq küsülü qalmağımıza gətirib çıxarırdı. Zaur öz həqiqətinə inanırdı. Onu dəyişmək mümkün deyildi. Bu saxta həqiqət onun həyat amalına çevrilmişdi.
Qapının ağzındakı kresloda oturdum. Bu sirr beynimi məhv edirdi. Çarəsizlik içində yox olurdum. Səbəbini, niyəsini bilmədiyim bir sirr. Elə bir sirr ki, bu haqda yalnız müqəddəs kitablarda yazılıb. Elə bir həqiqət ki, onu yalnız Tanrıya şəkk gətirmədən inananlar anlayar.
Kim bütün qəlbi ilə O-na inanır ki? Görəsən Hz. İsanın və ya Hz.Məhəmmədin beynindən heç vaxt keçməyibmi ki, *bəlkə, O yoxdur...*
Onlar insan deyildilərmi? Onlarda da şübhə hissi deyilən "günahkar duyğu" yox idimi?
*"Bilirsən. Bu, çox çətindir*",- demək istədim... demədim. Kirimişcə dayandım. Səsimi sükunətə atdım. Qətiyyətim qırıldı.
Uzandığı yerdən kanalları dəyişdi. Orda işləyənləri söydü: *"Elə bil, erməniyə uşaq doğan bu qurumsaqların əzizi deyil",-* dedi.
Zaur elə hesab edirdi ki, ölkədə bütün toylar dayandırılmalı, bütün şadlıq sarayları, gecə klubları Qarabağ alınana kimi bağlanmalıdır. Onun mərdliyi, xalqına sədaqəti məni qorxudurdu. O, heç vaxt azərbaycanlı qızın bakirəykən hamiləliyinə inanmazdı.
...inanmadı da...
*Həyat elə qəribə möcüzələrlə doludur ki*...
Bütün cəsarətimi toplayıb ailəmizin başına gələn faciəni danışacaqdım. Hər gün "indicə öyrənəcək, öyrənən kimi də bizi küçəyə atacaq" qorxusu ilə yaşamayacaqdım.

*- Möcüzə-zad yoxdur. Hamısı boş şeydir.*
*- Eh, insanın başına elə izaholunmaz şeylər gəlir ki, ən mahir falçılar da cavabını tapa bilmir.*
*- Bu dünyada hər şey çox sadədir. Çox sadə. Yaşamaq üçün bircə yol var. Getdiyin yolu tanımaq. Hara, niyə getdiyini bilmək.*
...dillənmədim. Səssizləşdim.
Həqiqəti ona açmaqdan çəkindim. Qorxu hissinə büründüm.
Zaur gözlərini tavana zilləyib baxırdı.

*- Cənnətə bilirsən kimlər düşür?*
*- Yox*

*- Axmaqlar qiyaməti, böyük günü gözləyirlər. Ağıllılar isə özləri mükafata doğru gedirlər. Onlar bilirlər ki, mükafatı almırlar, qazanırlar... Tatuş, cənnət də, cəhənnəm də burdadır. Düz yolla, təmiz yolla getsən cənnətdə yaşayarsan. Spartakın yolu ilə gedənlər isə...*
Cümləsinin davamı hülqumuna ilişib qaldı. Sifətimə milləndi. Düz gözlərimin içinə baxmaq istəyirdi. Mənsə gözlərimi yerə sərdiyim xalçanın butalarına dikmişdim. Əldə toxunma xalçamdakı hamilə qadını xatırladan qırmızı-qırmızı butalar.
Televizoru söndürdü. Var-gəl elədi. Siqaret çəkdi. Bir stəkan "Sirab" içdi.
*- Yemək yeyirsən?*
*- Çox acam.*

Birlikdə yedik. Xoşladığı mixəkli çaydan içdi. Ölkənin siyasi vəziyyəti barədə uzun-uzadı məlumat verdi. Hirsləndi. Nifrətini evimizə yaydı. Bütün siyasətçiləri və onunla məşğul olanları söydü. Sonra isə öz ürək ağrılarından, son zamanlar ortaya çıxan şəkər xəstəliyindən danışdı. Söhbətinin sonunda nəşriyyatda tanış olduğu yeni müxbirin ağlasığmaz fəlsəfəsi barədə dedi-güldü.
Həmin o, təzə müxbir deyirmiş ki, guya bütün əlillər, təqaüd vaxtı çatmışlar, kimsəsiz qocalar orduya getməlidir. Qarabağ alınan zaman onların hamısını birlikdə sərhəd rayonları boyu buraxmaq lazımdır ki, minalara düşsünlər, torpaqları təmizləsinlər.
Ayaqqabılarını geyinib qapıdan çıxanda isə, müxbirin sonuncu fəlsəfi traktatını danışdı. Guya insanların faciəsinin kökündə Həvvanın yediyi buğda dənəsi durur. Buğda dənəsi bizdə manqurtlaşma yaradır. Əgər buğda olmasaydı, Həvva Allahın sifət cizgilərini yadında saxlaya biləcəkdi və beləcə bunu yenidən hansısa dini kitabda tapmaq üçün insan neçə min il gözləməyə məcbur olmayacaqdı.Onu tez tapacaqdıq. Əzab çəkməyəcəkdik. Biz uzun müddət aldanmayacaqdıq.

Zaur vətənpərvərlərdən ibarət cəmiyyətə gedib gəlirdi. Orda nə iş gördüyünü soruşanda: *"Qüdrətli Azərbaycan yaradırıq",-* deyirdi. Zaur bu haqda çox danışmazdı. Orada baş verənləri dövlət sirri kimi qoruyub saxlayırdı. Nə sirr idisə, neçəil idi nə vətəninə bir xeyri dəyib, nə də özünə... İmkanı olsa idi, gedib "azadlıq" meydanında yatardı... Orduya getmək cəsarətini göstərə bilməmiş qorxaq "milli qəhrəmanlar" kimi idi. Onunku qəzet redaksiyalarında, şirzadın kafesində, ucuz "xan" arağından vurub "Qarabağı almaq" planlarından o tərəfə keçmir.

Evdə yenə tənhayam. Məryəm otağından çıxmır. Yeganə dostum televizordur. Orda qohumlarım, dostlarım, sevgililərim - hər şeyim var. Televizor dərdimi

unutdurur. Məsələn, səhərlər yemək proqramlarından birinə baxıram. Günorta "Don Xuan və onun gözəl xanımı" başlayır. Onun ardınca "Möhtəşəm kraliça", sonra "Yarpaq tökümü"...
Bir vaxtlar orda işləyirdim. Anladım ki, televizora baxmaq, orda işləməkdən daha maraqlıdır.
Muxtarla Moskva səyahətlərim...
...çəkilişlər...
... xoş və utanc dolu kameraarxası olaylar...
...televiziyanın dəhlizlərində fəxrlə, başıdik gəzmək...
...ucuz şöhrətin insanın qarşısında açdığı dərin uçurum...
...və özümə heç vaxt bağışlaya bilmədiyim günahlarım...
Xəyanət insanı rəzilliyə, riyakarlığa öyrəşdirirmiş. Məgər buna görə azmı qurbanlar verdim? Əbədiyyətə qədər vicdan əzabı verəcək qurbanlar!
Hamısı geridə, hansısa bir romanda, "Beş mərtəbəli evin altıncı mərtəbəsi"ndə qaldı.
Bəzi gecələr sanki şeytan pəncərəmdən içəri atılır, Zaurun qoynunda ikən qəlbimə girirdi. Tez ayağa qalxıb ən açıq-saçıq paltarımı geyinər, özümü küçəyə atardım.
Bunlara əxlaqsızlıq kimi baxmırdım. Düşünürdüm ki, beləcə, mən başqalarından fərqlənirəm. Əsil azad insan kimi yaşayıram. Ah! Həmin zamanlar mən özümü necə də xoşbəxt sanırdım. Hər gecə tanımadığım birinin yatağında oyanmaq, hər gecə sonsuz ehtirasla sevişmək.
Zaur bunların heç birini bilmirdi - Məryəm doğulmamışdan qabaq Spartakla gizli görüşlərimdən və həyatımda nə vaxtsa Manaf adlı birinin "ilk sevgim" olmasından başqa...
Spartakla Pirşağı bağlarında görüşdüyümüz zamanlar Zaur onu görəndə rəngi avazıyırdı. Mənə elə gəlirdi ki, Zaur utancından nə edəcəyini, hara girəcəyini bilmir. Həmişə ondan və onun olduğu yerlərdən uzaq durmağa çalışırdı. Həmin vaxtlarda tez-tez təkrarladığı bir cümləsi vardı: *"Məni atmazsan hə, Tatuş? Səni elə sevirəm ki..."*
Yenicə doğulmuş günəş pak şüalarını otağıma doldururdu. Yuxudan təzəcə ayılmışdıq. Zaur adəti üzrə başı üstünə qoyduğu kitabına əlini uzatdı. Telefon zəng çaldı.Atası idi. Xəbər verirdi ki, *Spartakın kişiliyini kəsiblər. O da özünü öldürüb.*
O, telefon dəstəyini bir neçə saniyə əlində saxlayıb daldı və gülümsədi. Eşitdiyi xəbərdən sevinmişdi. Mənsə ağladım. Ondan sonra Zaur, *"Məni atmazsan hə, Tatuş? Səni elə sevirəm ki"* cümləsini bir də dilinə gətirmədi. Yəqin arxayınlaşmışdı. Heç vaxt onu atmayacağıma özünü inandırmışdı.
Sonradan eşitdim ki, Spartak çadır şəhərciyində yaşayan qaçqın uşaqlarını oğurlayıb xaricilərə satırmış.

Bir dəfə də 12 yaşlı qızı oğurlayanda yaxalanmışdı. Bu hadisəni də qızın atası açıbmış onun başına... Spartak da utancından belə iş tutub.
*"Heç narahat olma, mafiyada uşaqları övladlığa götürmürlər... Hamısının içalatını çıxarıb satırlar",*– deyirdi, Zaur.

Günəş Xəzərin arxasına çəkildi. Bayılın neftli iyi yavaş-yavaş gecənin qaranlığına qarışdı. Qapı döyüldü. Açdım. Zaurdu.
*"Yenə sabun köpüklərinə baxırsız?"-* dedi. Kanalları dəyişdi. ANS-in "Xəbərçi"sində durdu. Divana uzanıb gözlərini ekrana zillədi.
*"Tatuş, əzizim, yeməyi gətir",-* dedi. Mətbəxdən ANS diktorlarına məxsus cəsarətli, qorxmaz bir səs eşidilirdi.

****Amerika gizli kəşfiyyat orqanlarэ Эranэ daxildən parзalamaq niyyəti ilə цlkəyə daxil olublar****
**** Daplэq Qarabap mьnaqiюəsi heз vaxt həll olunmayacaq"- Vladimir Putin ****
****ATƏT-in Minsk qrupunun həmsədrləri цlkədən qovuldu****

Xəbərlər qurtaran kimi Zaur Putini sцyməyə baюladэ. Sanki yarasэnэn qaysapэnэ qoparmэюdэlar. Mənimsə beynimdə bir sцz fэrlanэrdэ: "*TATUЮ, ƏZЭZЭM*". Neçə il idi, Zaur mənə "*ƏZЭZЭM*" demirdi. Sanki цzьmə inamэm artdэ. O məni sevirdi. Deməli, dərdimə də юərik olardэ. Hər юeyi aзэb demək ьзьn цzьmь hazэrlamэюdэm ki, reklamlar baюladэ.

****Azərbaycanlэlar ən gцzəlinə layiqdirlər. Azərbaycanlэlar ən sьrətlisinə layiqdirlər.*
*Azerfone, Vodafone****

Vodafonun reklamı qurtaran kimi Zaur yerindən dik atılıb bağırdı:
- *Tapdım, Tatuş. Tapdım.*
- *Nəyi tapdın?*

Qollarını boynuma dolayıb dodaqlarımdan öpdü.
- *Bəsdir. Meri evdədir.*
- *Tatuş, tapdım. Sabahkı çıxışımı, layihənin ideyasını tapdım.*

Güldüm. Sevinirdi. Zaur xoşbəxt idi. Axmaqcasına xam xəyallara qapılırdı. "Don Kixot"luq edirdi
- *Gəl, yeməyini ye*.
- *Axır ki, bütün dünyada sözümü deyəcəm. Hamı "Qarabağ" haqqında hər*

*şeyi biləcək. Dünyaya isbat edəcəyəm ki, Azərbaycan ən mükəmməlinə layiqdir.*

Dolmaları çəngəlin dişlərinə keçirib çörəksiz yeyirdi. İştahla. Sanki uğrunda ölümə getməyə hazır olduğu Qarabağı indicə almışdı.
Sanki o "ilahi qələbə"ni bu dəqiqə çalmışdı.
Elə bil, dəfnə yarpaqlarından tacı ikidəbir ağaran saçlarının üzərinə qoyub zirvəsinə kimi ağac olan əfsanəvi "Qarabağ" dağlarında oturmuşdu.
Sevinirdi. Mənsə qorxmağa başlayırdım. Qarşısında bu qədər böyük məqsədi olan Zauru yolundan geri döndərəcək kəpənəklər... Elə kəpənək ki, onlar qiyaməti xəbər verəcəklər. Zaur Məryəmi buna görə heç vaxt bağışlamaz.
*- Meri yoxdur?*
*- Otağındadı. Yenə oxuyur. Yazıq qız...*- dedim. Elə ardınca da açıb hər şeyi danışacaqdım. Qorxdum. Çəkindim. Cəsarətsizləşdim.
Zaur yeməyini axıra kimi yemədi. Süfrədən tez qalxıb noutbukunu açdı.
*"Onda qatil damğası yeyərəm. Həyatımda ikinci cinayəti işləmək istəmirəm. Günahsız, təmiz birini necə öldürüm? Taleyimi yenidən yazmaq üçün birini qurban vermişəm. Onda yalnız özüm bədbəxt oldum. İndi isə yeddisini birdən öldürməliyəm. Meri də bədbəxt olacaq", -* öz-özümə danışırdım. Daxilimdə II dünya müharibəsi gedirdi.
Planlar qururdum. Sonu peşmançılıqla bitən sui-qəsd planları.
Birdən günahsız, doğulmamış körpə gözümün önünə gəldi. İlk cinayətim.
...ilk günah zamanı özümü bağışlamadım...
...ilk günahda bir az kədər olur...
...atılmışlıq...
...tənhalıq...
...yalnızlıq...
...kimsəsizlik qarışıq bir duyğu...
Spartakdan hamilə qaldığım körpəni üç aylıq ikən salmışam. Bir ay sonra Pirşağıda, bağ evindəyik. Spartakla səhərə kimi bir yataqda. Çirkliyəm. Cuzam xəstəliyinə tutulmuş adamlar kimi bədənimin çürüdüyünü hiss edirəm. Sanki dərim sümüklərimdən ayrılır. Mənsə bundan zövq alıram. Tez bir zamanda parçalanmaq, kiçik zərrələrə ayrılıb yox olmaq, gözə görünməmək istəyirəm. Qeybə çəkilməyi arzulayıram. Elə bir qeyb ki, orada Tanrı qollarını açıb məni sorğu-sual etmək üçün gözləməsin. Ya da ağ saqqalını tumarlaya-tumarlaya: "*Günahkarların yolu mənim yanımdan keçir. Axır ki, gəlməkdən qorxduğun yerə gəldin",-* deməsin.
Siqaret dumanına bürünmüş otaqda iki günahkar. Və qəribə gecənin zülmətinə oturmuş qulaqbatırıcı sükunət.

Pəncərənin qaranlığına bağın dərinliyindən bayquş ulartısı gəlir. Səssiz qaranlığa qarışmış ulartıda səmadan kiçik bir “ulduz” axıb, əriyir.
- *Əzizim, xoşbəxt deyilsən?-* qulağıma pıçıldayır. Qucaqlayır. Öpür.
- *Özümü çirkli hiss edirəm. Sanki çirk dərimə işləyib. Özümdən utanıram.*
- *Əşi, nə danışırsan. Taleyin beləymiş. Sənin günahın yoxdur.*- Məndən aralanıb siqaret yandırdı.- *Hər şey yazılıb. Cənnət, ya cəhənnəm. Alın yazında hər şey var. Belə özünə daha çox əzab verirsən*.
- *Yox. Tale, qismət yoxdur.*
- *Bəlkə belə daha yaxşı oldu. O körpə günahımızın nəticəsi idi. Günahdan doğulanlar daha çox əzab çəkir.*
- *Mən həyatımın ssenarisini yenidən yazacağam!*
- *Necə?*
-*Zaur yaxşı insandır. Məni sevir. Onunla evlənəcəm*.
Sifətinə baxdım. İfadəsiz idi. Məndən canını qurtara bildiyinə sevinmiş olmalıydı.
- *Həyatının köhnə ssenarisi necədir?* - dedi. Bic-bic güldü. Siqaretini sümürdü.
- *Miskin və tərk olunmuş bir halda ölmək. Kimsəsiz, tənha, günah dolu.*
...köhnə xəstəxana binası...
... yaxını olmayan, ölüm ayağında biri...
...dəhlizi bürümüş kədər və ölüm qoxusu...
...qapıya zillənmiş bir cüt ümidli göz...
...və son deyilən anın gözlənmədik bir zamanda qəlbə dolması...
Demək ki, hər şey taledən asılı deyilmiş. Spartak kişiliyini itirəndə niyə taleyi ilə barışmadı? Özünü öldürdü.
Yaxşı, bəs bu nə idi? Mən öz taleyimə ki, belə bir şey yazmamışdım. Məryəmin taleyi mənimkinə müdaxilə edirdi.
Zaur noutbukunu bağladı.
- *Təhminə, çay ver,* - dedi. Üzümə gülümsədi. -*Bilirsən, bu layihəm keçsə, bütün dünya bizdən danışacaq.*
- *Limon istəyirsən?*
-*Yox.*
Çayını içdi. Oturduğum yerdən onun çayı necə içdiyinə, armudu stəkanı nəlbəkiyə sürtə-sürtə qaldırmağına baxdım. “*Başla. Tez ol. De, canın qurtarsın”,* - öz-özümə pıçıldadım.
- *Zaur, necə deyəcəyimi bilmirəm. Allah bizə bəla göndərib... Qurban olum, Zaur, qızımızı qurtar. Ona kömək elə,* - dedim. Ağladım. Həyəcanlandım. Və vücudumu bürüyən hisslərin qarışığından çarəsizləşdim. Miskinləşdim.
- *Meriyə nə olub?*
- *Hamilədir.*
- *Nə?*

*- Kəpənək doğacaq... Həkim dedi. "Leyla Şıxlinskaya"ya aparmışdım. Dedilər ki, 7 kəpənək doğacaq. Heç nə başa düşmürəm. Həkimlər heç nə anlamır. Tibbdə bu cür hadisələr olmayıb. Meri bakirədir. Müqəddəs Məryəm kimi...* - dedim. Gözümün yaşını sildim. Zaur bir müddət yerində donub qaldı. Nə edəcəyini bilmirdi.
Məryəmin otağının qapısı bağlı idi.
*"Məryəm. Aç qapını, tez ol. Küçük!"*
Zaur qapını itələyir, bağırırdı. Sonunda çiyni ilə vurub qapını qırdı. İçəri girdi. Məryəm yatağında hərəkətsizcə uzanmışdı. Zaur onun qolundan tutub silkələdi. Qız yuxudan dik atıldı.
*- Tez ol. De, görüm kimin altına yatıb məni biabır eləmisən?! Əxlaqsız!* - deyir, Məryəmi döyürdü.
*- Qurbanın olum, Zaur. Qızın günahı yoxdur. Allahın bəlasıdır,-dedim*, qolundan tutub otaqdan çıxardım. Qapını çırpıb getdi.
Məryəmin çarəsiz hıçqırtıları qəlbimi paraladı. Bir neçə dəfə söhbət etmək istəsəm də, başını yorğanın altından çıxarmadı. Ağladı. Ağladı. Yatdı.
Televizor... Fikrimi dağıdacaq, məni müəmmalarla əlləşməkdən uzaqlaşdıran yeganə vasitə. Yenə kanalları səyahətə başladım.
Space TV-də "Exstra hiss" adlı cadugərlik verlişi gedirdi. Görücü studiyaya gələn zəngləri qəbul edir, onlara taleyini, keçmişdə yaşadıqlarını deyirdi.

*- Alo. Salam. Mirmehdi bəy?*
*- Salam. Buyurun. Kimin taleyini öyrənmək istəyərdiniz?*
*- Özümün.*
*- Lap yaxşı. Adınız. Yaşınız. Gözlərinizin rəngi və ünvanınız?*
*- Adım Təhminədir. 38 yaşım var. Bayıl qəsəbəsi, Əsarət prospekti 666 ünvanında yaşayıram. Gözlərim xamilyondur.*

Görücü dediklərimi qeyd etdi. Xeyli susdu. XVIII əsrin İran saraylarındakı xədimağalar kimi göz qapaqlarını ağır-ağır qaldırdı.
*- Onlar mənə dedilər,* - dedi.
*- Təhminə xanım. Siz bir dəfə yaşamısınız. Mənim gördüyümə görə, siz 23 yaşınızda yenidən doğulmusunuz. Daha doğrusu, Allahın qeydlərində sizin taleyiniz 23 yaşından sonra yazılmayıb. Ona görə də sizi nələrin gözlədiyini deyə bilmərəm.*

Hər şey alt-üst olmuşdu. Mən hələ də inana bilmirdim ki, taleyimi özüm yazmışam.
Veriliş bitdi. Kanalı yenidən dəyişdim. ANS TV-də kəpənəklər barədə sənədli film gedirdi.

**** Kadrda müxtəlif rəngli kəpənəklər uçuşur. Kadrarxası səs: (Məmməd Səfa)*
*Kəpənəklərin yaranmasında hansısa möcüzə gizlənirmi? Tanrı öz varlığını insanlara isbat etmək üçünmü bu qədər canlı aləmi, izaha gəlməz möcüzələri yaradıb?"****

Bu səs məni qorxutdu. Mənə elə gəldi ki, ölümdən sonrasıdır. Allahın qəbulundayam. O deyir: *Bunu cəhənnəmə aparın.*
*- Dəyiş taleyini. Onu yenidən yaza bilərsən...*
*- Yox. Artıq gecdir. Alınmaz. Bacarmaram -* deyə, öz-özümə danışırdım.
Hər şeyə yenidən başlamaq... Elə hesab etmək ki, keçmişdə nə baş vermişdisə hamısı yuxu idi. Yox idi. Məgər həyatın çıxılmaz yollarında özünə yenidən bir yol açmaq mümkündürmü? Bunu kim bacarıb ki? Keçmişindən qaçmaq heç kimə nəsib olmayıb.
...vicdan...
...xatirələr...
...yaddaş...
Bunlar insanın həyatının hər anında, hər yerində gözə dəyir. Həyatının elə anında köhnə günahların yada düşür ki...
...geriyə qayıtmaq və səhvlərini bircə-bircə düzəldə bilmək...
... "keçmişinlə yaşa" deyənlərə nifrət etmək...
...inqilab etməyi bacarmaq...
Görəsən, Tanrıdan başqa kim öz taleyini hər dəfə yenidən, yenidən yaza bilər? Bilərmi?
Bacararmı? Yəqin...
Yaşadıqlarının hamısını bir anlıq beynindən silib atmaq... Hər şeyə, doğulmağa, sevməyə, sevilməyə yenidən başlamaq...
...bəlkə də, mümkündür...
Mədinəni xatırladım. Köhnə bir tanış. Silib unuda bilmədiyim keçmişimin bir parçası. Hərdən mən də onun kimi olmaq istəyirdim. Namuslu, başqalarının qoyduğu qanunlarla yaşayan biri. Olmadı. Alınmadı.

"*Cızığımdan çıxmasam. Nə bilim ki, cızığım harda başlayır, harda qurtarır"* – deyirdi, Ramiz Rövşən.

Mədinə üçün cızığın harada başlaması və harada bitməsi heç bir əhəmiyyət daşımırdı. Ona bircə cızıq lazım idi ki, başını aşağı salıb düz yolunu getsin. Mən başımı aşağı sala bilmədim. Cızığın sonunu görmək istədim. Sonranı, sonradan da sonranı görmək istədim.

Nə gördüm? Boşluq…
Zaur Məryəmin bakirəliyinə inanmadı.

*" Hə! Möcüzədir… Mənim qızım kəpənək doğacaq. Özü də, birini yox. Düz 7 kəpənək. Belə şeylər ancaq dini kitablarda olur. İsa ölüləri diriltdi… İsa cuzamlıları sağaltdı… İsa korlara göz verdi… İsa suyun üstündə yeridi… Boş şeydir. Hamısı mənasız cəfəngiyyatdır"- deyə,*bağırırdı.
Adəti üzrə siqaretini sümürə-sümürə: *"Sənin o Məryəmin ALLAH bilsin kimin altına… Eşidirsən?! Danışdıqlarının hamısı uydurmadır, milləti qoyun yerinə qoyub otarır. Küçük! Yox bir Cəbrayıldan hamilə qalıb!"-* deyirdi.

Zaur qışqırır, çarəsizcə siqareti siqaretə calayır, çıxılmazlıq içində vurnuxurdu.
*"Buna bir çarə tap. Mən bir həftədən sonra gələcəm. Onda hər şey əvvəlki qaydasında olmalıdır",* - dedi və getdi.
Məryəmin hıçqırtılarını eşidə bilirdim. Ağlayırdı.
Müqəddəsləri kim seçir?
Niyə müjdə verənlər heç vaxt istəklərinə çata bilmirlər?
Niyə xeyir, ədalət qələbəni o dünyada çalacağına inanır?
Cənnət və cəhənnəm yoxdursa, Tanrı və müqəddəs ruh yoxdursa, onda bəs kim var?
Həyat milyon illərin aldanışıdırsa, xeyirin qələbəsi çarmıxa çəkilməkdirsə bəs?..
Bəlkə də, Cənnətdəki EDEN bağlarında indi kimsə yaşayır, bəlkə də, EDEN bağı yoxdur heç…
Bəs bizi kim aldatdı?
Allahı kim uydurdu?

Müqəddəs Ana sizi qoruyacaqmı?

*O zaman insanlar: "Həqiqətən doprulara mьkafat var, dьnyanэ idarə edən bir Tanrэ var",- deyəcəklər. (Deyəcəklərmi?!.)*

*(Mez.58: 11 Zəbur.)*

*(Nənəmin gündəliyindən.19.., 14 may)*
*"...Günah işlədim. Utanıram. Mən ləyaqətli qadınam? Eh! O, qədər şeyə gecikmişəm ki... Peşmançılıq heç nəyi dəyişmir. Bütün varlıq təsadüf nəticəsində yaranıb. Ya da hər şey onun dediyi kimidir: "Biz kiminsə yuxusuyuq". Görünür, hərdən elə əməllər törədirik ki, onlar başqalarının həyatını alt-üst edir. Hər şeyə əvvəldən başlayacam. Lap əvvəldən, o günə kimi...*
*Laveylə tanışlığımız elə də adi olmadı. Universitetdə müəllimlər "ateistlər klubu" təşkil etmişdilər. Müxtəlif ateist gənclər bura yığışır, "Cəmiyyəti oyatmaq", "Darvinin nəzəriyyəsi"ni insanlara çatdırmaq üçün təkliflər irəli sürürdülər. Mən də bu kluba tez-tez gedər, ancaq heç bir təklif verməz, heç danışmazdım da...*
*Bir gün gözümə qəribə biri sataşdı. Saçlarını dibindən vurdurmuş, çənəsində keçi saqqalına oxşayan saqqal, qara geyimli biri. İlk baxışda onu elə də sevmədim. "İncil"in qatı düşməni olan bu cavan oğlan dini kitabları, görünür, çox oxumuşdu. Göstərdiyi dəlillər isə inandırıcı idi.*
*Bir dəfə klubdan birlikdə çıxdıq. Yolumuz eyni idi.*
*"Siz hansı əsasla Allahı inkar edirsiz?"- dedi.*
*"Mən... Mənim fikrimcə... O, bəşəriyyəti sadəcə yaradıb, sonra isə ölüb",- dedim.*
*Lavey qəhqəhə çəkdi. "Maraqlı mülahizədir",- dedi. Sonrakı görüşlərimizin ardı gəldi. Biz sevgili olduq. Demək olar ki, bütün günü bir yerdə idik.*
*Bəzən axşamlar "Qala 4" ünvanındakı mənzilimizin pəncərəsi önünə gələr, bayquş ulartısına oxşar səs çıxarardı... Mən də işarəni anlayan kimi qapının ağzına çıxar, onunla birlikdə İçərişəhərin dar dalanlarını dönüb Xəzərin sahilinə enərdim.*
*Gecənin ecazkar qaranlığında Tanrının yoxluğuna dair bir-birimizi inandıracaq müxtəlif fikirlər söyləyər, faktlar gətirməyə çalışardıq.*
*Laveyin pəncərəmizə atdığı daşların səsi o zülmət, günah dolu axşamların birində daha aydın eşidildi. Yenə bayquş ulartısı duydum. Pəncərəyə yaxınlaşdım. Laveyi gördüm.*
*"Sənin üçün darıxdım. Görmək istəyirdim",- dedi.*
*Pəncərəni açdım. Otağıma girdi. Sevişdik. Həyatımda ən böyük günahı işlədim. Bu elə bir günah idi ki, ömrümün axırına kimi mənə vicdan əzabı verəcək.*
*İblisani hisslər, şəhvət və aşiqin bihuşedici öpüşləri mənə atamın evdə olduğunu unutdurdu. Unutduğum yalnız atam deyil, bütün dünya, Tanrı və bu*

*qədim şəhərin neçə əsrlərdən bəri sürüb gələn qaydaları idi. Mən bu öpüşlərin sehrinə qapılanda o qaydaları tapdalayır, əzirdim.*
*Qızını tanımadığı kişinin altında lüt-üryan görən atamın özünü asması...*
*"FACİƏ" dedikləri beş hərfli söz ömürlük ləkə kimi alnıma yapışıb qaldı.*
*...azğınlaşmış ruhumun, kor olmuş bəsirətimin cəzasını mən çox çəkəcəm...*
*...çirkaba bürünmüş ruhuma çoxmu əzab verəcəyəm?..*
*Görəsən, atam məni bağışlayacaqmı? Kaş, hardasa onunla qarşılaşa biləm.*
*"Ata, məni bağışla",-deyə pıçıldayam. Ayaqlarından öpəm.*
*İlahi! Varsansa, günahımı bağışla".*

Nənəm gündəliyinin ilk səhifəsini günahla başlamışdı. Kədərli bir əhvalatla... Bunu anamın xatirə dəftərlərinin arasından tapdım. Əzilmişdi. Səhifələri saralmışdı. Ancaq yasəmən iyi verirdi. Nənəmin qoxusu...
*- Skeytini götürürsən?*
*- Yox, şəhəri gəzmək istəyirəm.*
*- Okey. Sənə super xəbərlərim var.*
*- Mənim isə pis xəbərim.*

Eşitmədi. İsus telefonu söndürmüşdü.
Yazıçı idi. Kiçik hekayələr yazırdı. Əsl adı İsa idi, ancaq mən İsus deyirdim. Nobel mükafatını almaq, Amerikada yaşamaq ən böyük xəyalı idi. Amerika musiqisi... Hollivud filmləri... Amerika yazıçıları... və amerikalı olmaq... Ölkədən çıxıb getmək isə onun məqsədlərinin lap birinci cərgəsində dayanırdı. Bir çoxları kimi o da sevmirdi buranı: *"Bura toyuq fermasıdır. Burda ən yaxşı halda ana toyuq olmaq olar. Mənsə xoruz olmaq istəyirəm. Onun üçün də çəpəri atlayıb fermadan qaçmaq lazımdır"-* deyirdi. Mənsə, hər dəfə onun bu misalının nə qədər məntiqsiz olduğunu sübut etməyə çalışırdım.
Hərdən elə sevinirdim ki... Sevinirdim ki, İsus atamı tanımır. Atam belələrinə nifrət edirdi: *"Erməni balası, erməni!*"
Telefonun qulaqcıqlarını qulağına taxmışdı. Uzun saçlarını arxaya daramışdı. Ağ, qolsuz köynəyinin üzərində "Calvin Klein" yazılmışdı. Boz rəngli, balaqları dar cins geyinmişdi. Əsl amerikasayağı. O, bu tip geyim tərzinə "sport" yox, "free" deyirdi.
Yanağımdan öpdü. Əlimdən tutdu. Həmişə oturduğumuz "Ali and Nino" kafesinə getdik. Adəti üzrə iki "Sakura" çayı sifariş verdi. Sonra çıxıb şəhərdə xeyli dolaşdıq. Nəhayət, "Hökümət evi"nin qarşısına gəldik. Pillələrdə oturduq.
*- Mən dünyanın ən ağıllı insanıyam.*
*- Nə maraqlı adı var...*
*- Bunu oxuduqca dəhşətə gələcəksən, Meri. Bilirsən, necə gözəl hekayələr var?-* İsus internetdən telefonuna yenicə yüklədiyi kitab haqqında danışdı.

Türk dilində "Kişisəl gəlişim" və NLP kitablarını oxuyurdu. Ən çox da "Uğur qazanmağın yolları", "Xəyalları olan heç vaxt yatmaz", "Zamanı necə idarə etmək olar?" kimi kitabları sevirdi.
Özünü necə tanıya bilərsən? Bəlkə də sən hamıdan istedadlı, hamıdan fərqli birisən?
...yaxınlarımız bizi özləri kimi edir. Özləri kimi adi, anlaşıqlı və primitiv...
Səmaya qalxmaq üçün, Allahın ətəklərindən tutub həqiqəti onun öz ağzından eşitmək üçün kosmik gəmi heç kimə lazım deyil.
Bizə özümüzdən başqa heç kim kömək etməyəcək. Nə atamız, nə anamız. Heç Tanrı da...
Kim var bu içəridə? Nə istəyir? Daha doğrusu nə olmaq istəyir?
Məgər bunu bilmək mümkün deyil? Adam hərdən "məndə kim var,məndən içəri" deyə bağırmaq istəyir.

*"Meri, sən super sevgilisən. Mənim "crazy girl"ümsən",* - dedi. Məni ilk dəfə dodağımdan öpdü. Dilini ağzıma salmaq istədi. Həyəcandan dişlərim kilidləndi. Birdən nənəmin gündəliyində yazdığı faciə yadıma düşdü. Atamı, İsusu və özümü həmin vəziyyətdə gördüm. Onu geri itələdim.

"*Bağışla*"- dedi. Bir ara susduq.
O, həmişə danışmaq istəyirdi. Sakitlik bizi qorxudurdu. Sükunətdə qəlblərimiz bir-birinə həqiqəti deyirdi. Bağırırdı.
...acı həqiqəti...

*- İstəyirsən, sənin üçün maraqlı hekayə oxuyum?*

Susdum. O, telefonunda kitab oxumaq üçün nəzərdə tutulan "Quickoffise" proqramını açıb oxudu:

*- Bax, Meri... Mövlananın hekayəsi...*

Oxuduqca tıncıxırdı - nəyisə demək istəyən adamlar kimi...

****Məcnun Leylisinə qovuşmaq üçün dəvəsinə minib sürür. Dəvənin arxasında da balası olur.*
*Məcnun dəvəni süründə balası arxada qalır. Balanı çəkəndə isə dəvə arxada qalır.*
*Bir müddət sonra Məcnun özünə gəlir. Birdə nə görsə yaxşıdır? Yerindən bir addım belə irəliyə getməyib!*
*O zaman Məcnun dəvəyə deyir:*

*-Ey dəvə! İkimiz də aşiqik: mən Leyliyə, sən balana. Biz bir-birimizə yoldaş ola bilmərik. Çünki biz bir-birimizin yolunu kəsirik****

İsus hekayəsini oxuyub qurtardı.
- *Meri, Rumi full olub,*- dedi ("full", "free", "OK" onun dilindən düşməyən sözlər idi).
- *Hə. Çox maraqlıdır. Dəvəyə nə var Məcnunun eşqindən... Ona öz eşqi əzizdir.*
Sonra da dodaqaltı pıçıldadım: *"Eyni ilə bizim kimi".*
Mcdonaldsa getdik. İsus Macfresh-lə Bigcola sifariş verdi. Mənsə Maklavaş götürdüm.
- *Axır ki, Mcdonaldsda Maklavaş da oldu.*
- *Lavaş avropalaşdı.*
Güldük. İsus kolasını içmədi.
- *Hamiləyəm. Kəpənək doğacam*.
O, təəccübləndi. Mən susdum.
- *Sən də yazıçılığa keçmisən?* - dedi.
Heç nə demədim. O, dərin bir ah çəkib:

- *Deyəsən, mənim Amerikaya səfərim alınacaq. TOEFL imtahanlarından keçdim. Nəticələri gözləyirəm*.

Elə dedi ki, sanki əbədiyyətə qədər burda qalmaq istəyir. Məgər həqiqəti bilmirəm?
Görəsən, neçə əsrdir Xəzərdən Bakıya sərin küləklər əsir? Qız qalasında nə vaxt öz hökmdar əbasına bürünmüş cəngavər yaşayıb?
Hansı pak mələykə özünü bu qaladan Xəzərin qayalıqlarının üstünə atıb?
Kim sevgilisini ilk dəfə Qız qalasının başında öpüb?
İsusla Bakını gəzmək Cənnətdə Eden bağlarını gəzmək kimi bir şeydir.
Günəş Xəzərin arxasına gizlənəndə bu şəhərə çökən alatoranlığa, səmanı al qana bürüyən şərqarışana və illərin əzabını çəkmiş Bakıya baxmaq üçün Qız qalasının üstünə çıxıb İsusla əl-ələ tutduq .
...İçərişəhərin dar küçələri ilə yerimək...
Bu küçələrin labirintində tarixin qaranlıq səhifələrini çevirə bilmək... Neçə yüz il bundan əvvəl həmin küçədən keçmiş Şirvan şahı Fərrux Yasarın ayaq izlərini görmək xoşbəxtlik deyilmi? Və daş döşəməli küçələrin qaranlıq döngələrində azan səsinə qarışmış bayırşəhərdən gələn kilsə zənglərinin vahiməsinə dayanmaq, anlamaq ki, bu ölkə şərqlə qərbi bir-birinə qovuşdurub hansısa bəşəri müharibədə barış ilahəsi rolunda çıxış edir.
- *Sənin danışdığın hekayə də maraqlıdır. Kəpənək doğan qız*.

Emolardan, paralel dünyalardan, yeni yazmaq istədiyi romanından danışdı.

*“Bilirsən, Meri? Nəsimi yenidən doğulmuş İsadır. Biz anlamadıq. Onu heç kim anlamadı və dərisini soydular. Çarmıxa çəkdilər.”*

Ayrıldıq. Evə qayıtdım. Anam ağlayırdı. Durmadan dualar edir, Allaha nəyimizi isə nəzir boyun olurdu.
Leonardo Di Kaprio, Bred Pit və yüzlərlə ulduzun rəsimləri ilə dolu otağım... Sevdiyim biri... Müqqəddəs İsanın “İsanın iztirabları” filmindəki rəsimləri... Sevirdim İsanı.
Niyəsə atam həmişə bu şəkilləri cırıb atardı. Halbuki o, heç vaxt anlaya bilmədi. Mən İsaya inanıram. Onun nə vaxtsa qayıdacağına da, hamımızı xilas edəcəyinə də.
...çarmıxa baxıram...
...İsanın əllərindən axan müqəddəs qan...
...gözlərindəki xoşbəxtlik Tanrının həqiqətən var olduğuna şübhə yaratmır.
Görəsən, Nəsiminin dərisi soyulan zaman gözlərində xoşbəxtlik vardımı?
Ölümünə müdafiə etdiyi həqiqəti ona kömək etdimi?

(Nənəmin gündəliyindən. 19.., 7 iyul)
“*Əziz günlük! Bu gün sənə öz dinim barədə danışacam. Uzun müddətdir məni düşündürən suallar...*
*Allah kimdir?*
*Ucsuz-bucaqsız kimi qavradığımız səmanın uc- bucağı varmı?*
*Əgər bu sərhədlər varsa, o sərhədlərdən sonra nə başlayır?*
*Bəziləri dedi ki, bizi başqa planetdən bura atdılar.*
*Başqası düşünür ki, Tanrı qəzəbləndi... Adəm və Həvvanı qovdu.*
*Oddan yarandıq deyən də oldu. Torpaqdan da...*
*Məncə, hər şey illüziyadır. Yanılmadır. Kiminsə başgicəllənməsi, ya da nəyinsə qarışması, bulanmasıdır.*
*Eh! Bəs üç günlük dünyada biz insanlar nə edək?*
*Başdan-ayağa günaha bürünmək. Namus... Şərəf... Adət-ənənələr, konstitusiya... Məsciddə ibadət... Hamısı xaosdur.*
*Bizi bu boş dini qaydalar qoymur ki, əsl həqiqəti, ALLAHI dərk edək.*
*İnsanı Allahın var olub-olmaması heç vaxt maraqlandırmayıb. Bizə əbədi yaşamaq üçün cənnət və firavan həyat bəxş edəcək biri lazımdır.*
*Anam evdən çölə çıxmır, utanır. “Qonşuların üzünə baxa bilmirəm”- deyir.*

Nənəm günaha batdığını yazırdı. Onun gündəliklərini oxuduqca bu cümlələrdən qorxurdum. Sətirlərin arasındakı əzabı görürdüm.
Nənəm qədər mən də əlacsız idim. O, azərbaycanlı qadına layiq olmayan bir iş

görmüşdü. Məni isə Tanrı cəzalandırmışdı... Cəzalandırmışdı? Bəlkə seçmişdi? Bilmirəm.
Bütün günü otağımdan çıxmırdım. Anam qapının ağzında dayanıb ağlayırdı. Ona dərdlərimi, bu hadisənin içində gizlənmiş müəmmanın sirrini açmırdım. Çünki bu sirrin cavabı Allahda idi. Həqiqəti yalnız o bilirdi.
Günortaydı. Nənəmin sirlərlə dolu gündəliyi çarpayımın üstündə idi. Götürdüm. Saralmış səhifələri çevirdim. 70-ci illərin gənc qızının "gündəlik qayğılar"ını və yaşadığı faciələri rəngli qələmlərlə yazdığı dəftər...
...qəribə, izaholunmaz şəkillər təsvir olunub.
Və vərəqlərin arasından otağıma yayılan yasəmən ətri...
...keçmişin, hansısa sirli bir dünyanın xarlanmış iyi...
...nə vaxtsa iyləməkdən zövq alıb doyduğum, unutduğum tanış qoxu...
...işarələrə çevrilmiş yaşam...
...nostalji duyğuların belə müqəddəsliyi hansımızın həyatında yoxdur ki!?.

*(Nənəmin gündəliyindən.19.., 31 fevral)*
*"Çoxdandır yazmıram. Həyatımda o qədər şey dəyişdi ki... Atamı dəfn etdik. Özümü günahkar hiss edirəm. Çirkliyəm.*
*Atamın 40-ı günü Lavey xəbər göndərmişdi. Məni "Qoşa qala qapısı"nın yanına çağırırdı.*
*- Bağışla.*
*- Hamiləyəm.*
*Yerindəcə donub qaldı. İkimiz də uzun müddət xəzri küləyinə sovrulan yarpaqlara baxdıq.*
*- Səni tək qoymaram... Bir yerdə yaşaya bilərik. Anandan üzr istəyərik. Bağışlayar? (sükut) Bəlkə bağışladı. Bəlkə xoşbəxt olduq.*
*- Atamı öz əllərimlə öldürdüm.*
*Ağladım. Xəzri yanağıma süzülən göz yaşlarını qurudurdu. Uzun müddət hərəkətsiz, səssiz dayandıq.*
*Hər şey düzələcək. Görəcəksən.Səni xoşbəxt edəcəm.*
*Qucaqlaşdıq. Mən xoşbəxt idim. Çünki "günahlar"ımın bir qisminin yuyulduğunu, atamın adını təmizə çıxarmaq şansımın olduğunu düşündüm.*
*Bir aydan sonra evləndik. Anam onu qəbul etdi. Ancaq hələ də hiss edirəm ki, o, bizə necə nifrət edir. Bəzi gecələr ağladığını eşidirəm. Allahdan ölümünü arzulayır... Namaz üstündə, ay işığı səmanın qaranlığında qiymətli daş kimi parlayanda anam dualar edirdi.*
*Universitetdə işə düzəldim. Ateizmdən dərs deyəcəm. Həmişə əllərimi açıb yalvardığım birini, Allahı inkar etməliyəm... Yəqin o məni bağışlayar. Bağışlayarmı?.. Nə bilim.*
*Hərdən fikirləşirəm ki, bura gəlməyimdə səbəb içimdə yığılıb qalan cavabsız*

*suallardır. Bu bir oyundur. Sonunda kimin qalib gələcəyini demək çətindir. Bütün hallarda Volterin dediyi kimi olur: "Allah olmasaydı, onu uydurmağa məcbur olardıq".*
*TƏHMİNƏ. Lavey dedi ki, adını belə qoyaq. Anasının adıdır. Bir neçə aydan sonra balaca qızım doğulacaq..."*

Onun həyatında hər şeyin birdən-birə dəyişməsi məni sevindirdi. Nənəmin ateist olmasına isə kədərləndim. Niyə? Məgər o, İsaya, Məhəmmədə inanmırdı?
..."İsanın iztirabları" filmindəki "İsa çarmıxda ikən" kadrından çəkilmiş foto... Otağımın divarında Leonardo Di Kaprio ilə Bred Pitin rəsimləri arasında. Ondan sağ tərəfdə Məhəmməd peyğəmbərin İslamın qadağalarına baxmayaraq böyük sənətkarlıq və şövqlə çəkilmiş rəsmi və adaşım Hz. Məryəm...
...dünyanın xilaskarları...
...Tanrının sevimliləri...
...bizi Tanrının içimizdə yaratdığı İblisdən Allahın vasitəsi ilə qoruyanlar...
...Allah niyə belə oynayır?..
*"Bu qız ya dindar olacaq, ya da kafir",* - atam deyirdi.
"*Sənin kimilər həyatda heç vaxt özlərinə yer tapa bilmir. Birini sev... Birini qəbul et... Ya İsa, ya da Məhəmməd. Belədə daha çox günaha batırsan*".
Hər dəfə otağımın divarlarındakı rəsmləri hirslə çəkib cırırdı. Hz. Məhəmmədin rəsmindən başqa.
Bu rəsmləri divardan qopararkən sifətindəki məyusluq, kədər və məğlubiyyətin verdiyi acizlik hissi anlaşılmaz idi. Sanki hansısa böyük müharibəni uduzmuşdu.
Nənəmin gündəliyi yarıda kəsilirdi. Anamdan eşitdiyimə görə o, müəmmalı şəkildə yoxa çıxmışdı.
- *Heç bir xəbər alınmadı?*
*Yox. Birdəfəlik çıxıb getdi. NUO-lar, paralel dünyalar, kosmosdakı həyat - ancaq belə şeylərlə maraqlanırdı. Bəzən gecənin yarısı durub pəncərənin qabağında otururdu. Gözünü ulduzlara dikib, saatlarla baxırdı. Deyirdi ki, guya başqa planetlərdən hamımızı bura atıblar. O da, onlarla əlaqə yaradıb. Gəlib onu aparacaqlar.*
*- Səncə, onu aparıblar?*
*- Yox. Meri, belə şeylərin hamısı uydurmadır. Bu dünyanı Allahdan başqa heç kim idarə edə bilməz. Nənənin başı xarab olurdu.*
*- Bəlkə də onu aparıblar,*- dedim.
...ümidli-ümidli...
... içdən bir arzu ilə...
...sanki həqiqətən də nənəmin başqa, hansısa planetə getməsini istəyirdim.

Kosmosu görmüşdümü? Səmadan Yer kürəsinə baxmışdımı?..
Yəqin o da heyrətə gəlib ölçülərin belə ani və maraqlı dəyişməsindən...
... səmanın ümmansız olduğunu, sərhədlərin ənginliklər olduğunu anlayıb...
... və yəqin hiss edib Allaha yaxın olmağın insana yüklədiyi nurani duyğunu...
...görəsən,Tanrını gördükdən sonra peşman olmayıb ki?..
...Bağışlanmağını diləyibmi? Bilmirəm. Bilə bilərəmmi? Bilmirəm.

*"Bəlkə də, çölə çıxdı, yolunu azdı. Hardasa öldü, batdı. Son zamanlar başı cayırdı. Allah rəhmət eləsin... yazıq arvad",*– deyib, anam ağlayırdı.
İsus SMS göndərmişdi.

*******Meri, Qoşa qala qapısının yanında gözləyirəm. Yarım saata burda ol. Səni sevirəm.
İsus... :)****

"*1918-ci il qırğınlarında ermənilər kişilərimizi bu divarların dibinə uzadıb, arvadlarınıiza da göbək rəqsi oynamağa məcbur edirdilər. Bax, bu mərmi izləri də o vaxtdan qalır",-* dedi.
...1918-ci il mart qırğınları...
...26 Bakı komissarı və erməni "daşnaksütyun" partiyası...
...qulaqları, qolları, burunları kəsilmiş qoca kişilər, hamilə qadınlar...
...minarəsi dağıdılmış "Təzə Pir məscidi"...
...və nəsillərə görk olacaq Qala divarlarında mərmi izləri...
Sonralar "26-lar bağı"na getməkdən utanırdım. Bakının göbəyində bizi qırdığı üçün xalqımızın qəhrəmanı adını verib heykəlini ucaltdıqları erməni mənə elə gəlirdi ki, üçrəngli bayrağı endirib yerində öz bayrağını dalğalandırır.
İsusun göstərdiyi mərmi oyuqlarına əlimi sürtdüm. Nənəmi xatırladım. Babamla burada görüşmüş, şərtləşmişdilər.
...günahlarını yumuşdular...
...yuyularmı o günah?..
...utancından özünü evinin zirzəmisindən asan atanı geri qaytararmı bu tövbə?..
...ulu babam geri qayıtmadı...
...sadəcə nənəm ləyaqətlə və vicdanla yaşadı...
...el içinə çıxa bildi...
...utanmadı...
...heç fəxr də etmədi. Üzündəki kölgəni hamı görmüşdü...
"Sabir bağı"nda oturduq.
İsusun telefonunda Əmrə Aydının treklərinə və HOST-un "üsyankar" repinə qulaq asdıq. Onlarla birlikdə mahnının sözlərini təkrar ladıq. Yanındakı

skamyada oturan emo tərzi geyinmiş oğlanın gitarasında ifa etdiyi bir musiqini dinlədik. Və M.Ə.Sabirin heykəlinə oturub yenidən səmaya qalxan quşlara baxdıq.
Sabir hamımıza görk deyilmi?
...özümüzü unutduğumuz, başqalaşdığımız bir vaxtda bu heykəl çiyninə toplanan quşlarla birlikdə M.Füzulinin heykəlinin başına qonub bağıracaq üzü "Tarqovı"ya doğru...
...söyəcək hamımızın keçmişinə, gələcəyinə...
...və daşdan yonulmuş gözlər canlanıb qan ağlayacaq...
...Sabir utancından o qədər ağlayacaq ki, hamımız onun göz yaşlarında batacağıq...

*- Bu kitabı oxumalısan.*
*- Kimindir?*
*- Xalid Hüseyni. Əfqan... Meri, super yazılıb. Mən də belə bir əsər yazmaq istəyirəm... Amerikaya gedim yazacam... "Xocalı qırğını" barədə full bir əsər yazacam*.
... qətiyyətlə...
... içdən gələn dərin, səmimi bir inamla...
... qəribə bir ürək yanğısı ilə...
Bu gözəl inam onunla bir daha fəxr etməyimə səbəb oldu. Sanki onu yenidən, əvvəlkindən daha çox sevməyə başladım. Atam da İsusu bu arzularına görə sevərdi...
*- Niyə müharibə olur?*
Sanki İsus müharibələrin səbəbkarı idi. Ya da bəşəriyyətin heç vaxt tapılmayacaq cavablarını çoxdan tapmışdı.
*- Bilmirəm*.
Telefonunu söndürdü. Ayağa qalxdıq. Hüseyn Cavidin ev muzeyinin qabağından keçib "İçərişəhər" metrostansiyasına doğru getdik.
- *Bu evdə olmusan?* - Cavidin evini göstərdi.
- *Yox*.
Birlikdə H.Cavidin evinə qalxdıq. İsus Cavidin hekayəsini böyük ürək yanğısı ilə danışdı. Sibir çöllərindəki əzablarını, vətəninə sədaqətini və türkçülüyünü...
Mən belə türk görməmişdim. Cavidi sevdim.
...Hz.İsa qədər sevdim Cavidi.
...mübarizəsini...
...əqidəsini...

*- Masonlar ölkəni ələ keçirib.*
*- Hardan bilirsən?*

*-"İçərişəhər"i görmürsən? Şüşədən piramida masonların işarəsidir. Bundan hər yerdə var.*
*- Amerikaya getsən, geri qayıdacaqsan?*

Bayaqdan bəri beynimdə min cür formaya saldığım sualı verib rahatladım.
*- Gəl, birlikdə gedək.*
*- Evdən buraxmazlar.*
*- Qaçarıq*.
...inamsızca...
...qorxaraq...
...astadan...
...dilucu...
...qətiyyətsizcə...
Susdum. Səssizcə eskalatorla endik. Bilirdim ki, İsus Amerikaya yeni həyata başlamaq üçün gedir. Ona mane ola bilərdim. Ruminin "Məcnun və dəvəsi" hekayəsini də elə-belə xatırlatmamışdı.
...köhnə "İçərişəhər" mənzərələri...
...qədim, üzərində ağ-qara rənglərin harmoniyası olan mozaikalar...
Qatar gəldi. Vaqonun birinci skamyasına oturduq.
*"Meri, sabah gedirəm",* - dedi. Elə dedi ki, sanki tez bir zamanda məndən canını qurtarmaq istəyirdi. Sakitcə əllərimi əlindən çəkib çantamın üstünə qoydum. Üzərində "Black girl", "You can love", "2 pac" , "To be or not to be"və s. ingiliscə cümlələr, sözlər yazılmış məxmər çantam...
*"Erməniyə xarı papaq, mənə yaylıq yaraşır... Ehtiyac üzündən şeirlərimi satıram... Vətən haqqında, Qarabağ haqqında qəşəng şeirlərim var*",- başı yaylıqlı bir kişi bağıra-bağıra vaqona girdi...
Biz bir-birimizə baxdıq. Qorxdum. Gözümün önündə qəribə mənzərə canlandı.
...Amerika...
...Los Angelos küçələri və ya "Ulduzlar parkı"...
...İsus. Əlində kitablar. Başına eynilə bunun kimi yaylıq...
...Turistlərin qabağına cumur...
*... "Qarabağ haqqında... Ermənilərin Xocalıda azərbaycanlıların başına gətirdikləri müsibətlər haqqında romanlar. Bir çörək pulu üçün satıram"...*
Onun əlini tutdum. Başımı çiyninə qoydum. İsusun həyəcandan artan ürək döyüntülərini eşidə bilirdim.
*"Meri, səni heç vaxt unutmayacam",-* dedi.

****Qapılar açılır. Növbəti stansiya "Sahil"* mikrofondakı səs vaqona yayıldı. Biz platformaya çıxdıq.
Sonuncu dəfə Xəzərin sahilində əl-ələ gəzdik. Dənizdən sahilə həzin meh

əsirdi. Sonuncu dəfə öpüşdük. “La kofe”də onunla “Capuçino freddo” içdik. Əbədi ayrıldıq. Sonralar İsusla yalnız virtual əlaqə yarada bilirdim. Məhəbbətindən, dünyalar qədər sevdiyin birindən arzularına, xəyallarına görə keçmək olarmı?
...olarmış...
...bilmirmişəm...
Evə qayıtdım. Axşam idi. İsus üçün Tanrıya dua etdim. Allaha İsusla fəxr etdiyimi dedim. Və onu əbədiyyətə qədər adaşı müqəddəs İsa kimi sevəcəyimi də...
Həqiqətən də, onunla fəxr edirdim. Məni arzularına qurban verməyinə baxmayaraq... Çünki o, öz yolunda öz addımını ata bildi. Xəyallarının dalınca getdi.
Bütün qaydalar, neçə əsrlərlə  qoyulmuş qanunlar insan xoşbəxtliyinin qarşısında nədir ki? Nə gözəl deyirdi: “*Meri, öz xoşbəxtliyin üçün qurban verməyi bacarmalısan. Bütün zəncirləri qırmalısan... İstədiyin kimi olmalısan”.*
Günəş Xəzərin neftli iyini öz nuruna boyayıb pəncərəmdən otağıma doldururdu. Gözlərimi telefonumun səsinə açdım. SMS gəlmişdi.
*“Sabahın xeyir. Meri, təyyarə qalxdı... xoşbəxtəm. Amerika məni gözləyir... Axşam feycbukda dostum mənə maraqlı fakt yollayıb. Deyir ki, Misirdə Allah Qorun anası bakirə olub, İsanın anası Hz.Məryəm də bakirə idi. Indi isə sən, Meri. Sən də bakirəsən və kəpənək doğacaqsan. Deməli, dünyaya yeni peyğəmbərlər gəlir?*
*Meri, səni çox sevirəm. Sən mənim “crazy girl”ümsən. Həmişə də elə qalacaqsan.*
*Sənin İsusun”.*

... sən isə mənim xatirəmdə həmişə “ilk sevgilim” kimi qalacaqsan....
... sevginin qorxulu və şirin iyini mənə qoxulatmış ilk sevgilim...
... ölkəsinin faciələri haqqında bütün dünyaya səs salmaq istəyən dəli sevgilim...
Bu elə əziz, doğma bir sevgidir ki, sonsuzluğa qədər beynimin bir güşəsində, gizli və məhrəm yerində dayanıb yaşayacaq, yüzlərlə dəfə xatırlanacaq...
...xatırlandıqca da öz dəyərini neçə illik şərab kimi artıracaq...
...artıracaq...
...ta ki, meyxoş bir dad alana kimi artıracaq...

Bas-Bariton

*“Bu dünyada yaşamaq aldadıcı zövq-səfadan başqa bir şey deyildir”.*
*(“Nisa” Qurani-kərim)*

Saat 2:30. Pəncərədən boylandım. Binanın qabağında avtomobillər şütüyür. Qoca, yorğun bir it səkidə zibil eşir. Teleqüllənin tez-tez dəyişən işıqları gözümə sataşdı. Hava dumanlı idi.

Məryəmin otağına girdim. Elə məsum, elə günahsızca uyuyurdu ki... Əlində xaç vardı. Saçından öpdüm. Darıxmışdım. Məryəmimin "Fendi" markalı ətrini ciyərlərimə çəkdim.

*"Allah səni seçdi. Müqəddəs olacaqsan",-* dedim. Sakitcə otağından çıxdım. Həmişəki yerimdə, divanın üzərində uzandım. Səssizlik idi. Küçədən keçən maşınların işıqları pəncərəyə düşüb ötürdü. Bir müddət belə baxdım.

... çarəsizlik...

....əllərim Tanrının ovcunda...

... qəlbimdə isə yeganə mənim olan ümidim. Bu ümmansız, bitib-tükənmək bilməyən ümid hər saniyə sinəmdə döyünür...

"*Hardasa yarım əsrdir yaşayıram"-* düşündüm. Doğurdan da, yarım əsr olmuşdu. Dəhlizdəki boy güzgüsünün önündə dayandım. Sifətimə, əyilmiş kürəyimə, qırışmış göz qapaqlarıma baxdım, baxdım. Əlbisələrimi soyundum. Sallanmış, öz təravətini itirmiş döşlərimə baxdım. Keçmişimi xatırladım. Bu vücud neçə tanımadığım gəncin şəhvət hissini öldürmüşdü. İlahi! Keçmiş utanc verici günləriməgörə əzab çəkirəm.

...güzgüdəki qadınla göz-gözə gəldik...

...onun gözlərinin dərinliyində iztirab və fəryad hayqırtılarını duydum...

...gözlərimiz bir-birinə uzun müddət ilişib qaldı...

...yadlaşdıq...

...özgələşdik...

...mən güzgüdə başqa Təhminə gördüm...

...başqa qadın...

...cinayətkar, əxlaqsız və qəlbini iblisə satmış qadın...

Güzgüdəki əksimi sanki tanımırdım. Sanki bu qadın bilmədiyim, heç vaxt görmədiyim bir məxluq idi.

Yenicə tikdirdiyim donu geyindim. Üzümü yüngülvari boyadım. Qapını bağlayıb aşağı endim.

Evdən çox uzaqlaşmışdım. Yarım saat olardı ki, çıxmışdım. Funikulyorun yanındakı işıqlandırılmış binalara baxdım. Azneft dairəsindən Filarmoniya bağına qalxdım. Vaqif Mustafazadənin "Düşüncə"si səslənirdi. Skamyada oturdum. Hava sərin idi. Həzin meh əsirdi. Ağladım.

"*Göz yaşı insanı dəyişir*"- bas-bariton səsli biri skamyanın sağ tərəfindən dilləndi. Əllərimi üzümdən çəkib baxdım. 35-40 yaşlarında, ücaboy biriydi. Qalın bığları vardı. Əsil "Qafqaz kişisi". Göz yaşımı sildim. Gülümsəməyə çalışdım.

*- Hər kəs cəsarət edib, bu saatda, belə bir bağda... Tək... həm də belə*

*gözəl... Sirli...*
*- Bir az da faciəli...*.
Qəribə gülüşü var idi. Dodaqlarını bir-birindən ayırmadan gülümsəyirdi. Eyni zamanda tanış çöhrə. Hardasa, nə vaxtsa ən əzizim olmuş biri... Elə biri ki, onun üçün bütün həyatımı qurban verməyə hazır idim.
*- Təhminə, zaman qədər qəddar heç nə yoxdur*.
Yerimdəcə donub qaldım. Unudulmuş, keçmişin hansısa küncündə atılıb qalmış bir sürü qayğı, sevgi, nəvaziş birdən-birə beynimi alt-üst etdi. Sarsıldım. Tutuldum. Keyləşdim.
- *Məni necə tapdın?*
*- Dəyişməmisən. Həmişəki gülüş... (ikimiz də susduq). Qorxurdum yaxınlaşmağa. Həm... artıq həyatını qurmuşdun. Qızın, ərin. Mən hər şeyi məhv edə bilərdim*.
Tutula-tutula danışırdı.
...çöhrəsində qəribə peşmançılıq izləri...
...zamanı geri qayatarmaq cəhdi...
...və buraxılmış səhvlərin əzabı... Bir az da laqeydlik. Vecsizlik. Umursamazlıq.
*- Bəs indi? İndi niyə yaxınlaşdın?*
Susdu. Çəmənliyə səpələnən kiçik su fontanına gözünü dikdi. Manafın üzünə baxdım. İlk sevgilimin özgələşmiş sifəti... Bir yerdə şəhərin küçələrini gəzdiyimiz, gecə klublarında min cür oyundan çıxdığımız, ilk sevgilimin... Bir az sınıxmışdı. Sanki həyat ona da mənim kimi zərbələr vurmuşdu. Alçaltmışdı. Dünyanın qaranlıq bir küncünə salıb, gün verib, işıq vermirdi...
Xeyli oturduq. Onun nə düşündüyünü bilmədim. Ancaq mən çox qəribə, sirli bir eşq macərasını xatırladım.
"M.F.Axundov adına kitabxanadayam. Bakı Dövlət Universitetinin tarix fakultəsinin birinci kursunda oxuyuram. "Dünya tarixi" fənnindən imtahandır. Strabonu axtarıram.
*- Üzr istəyirəm. Strabonu necə tapa bilərəm?-* deyə, Manafa yaxınlaşıram. Trapez şalvarlı, uzun saçlı oğlan... Başını aşağı salıb nəsə yazır. Səsimi eşidən kimi dikəlib gülümsəyir.
*- Antik dövrə getmək lazımdır,-* deyir. Mənim qızardığımı görüb işini yarımçıq qoyur, ardımca gəlir.
- *Sizinlə zarafat etmək istəmişdim... Nə qaraqabaqsınız?.. Gəlin, kömək edim...*
Strabonu tapıb, kitabı sifariş veririk. Kitabxanaçı:
*- Yarım saat sonra gəlin*.
*- Yarım saat?Əladır ki.-* Manaf gülümsəyir.
- *Çayla aran necədi?.. Gəl, bufetə enək, yarım saata gələrik*.
Çay içirik. Mənə çay süzərkən əlləri əsir. Gülümsəyir. Özündən danışır. Aktyor

olduğunu... İncəsənət universitetində oxuduğunu deyir. Ardınca da Cəfər Cabbarlının "Oktay Eloğlu" pyesində Oktayı oynadığını deyir (sonradan öyrəndim ki, yalanmış... Aktyor deyilmiş. Memarlıq və inşaat İnstitutunda "Ali kibernetika"nı öyrənirmiş).
Sonra isti olduğunu, "26-lar bağı"na getmək istədiyini bildirir. Birlikdə gedirik. *"Mən Dənizkənarı bulvara getmək istəyirəm, darıxıram",*- deyir. Sahilə enirik. Yolu keçmək istəyəndə əlimdən tutur...
İlk dəfə idi ki, əlimə kişi əli dəyirdi. Qorxurdum. Ürəyim həyəcandan çırpınırdı. Nə edəcəyimi, onunla necə davranacağımı bilmirdim... Sadəcə, xoşbəxt idim. Utanmırdım.
Həmin gün axşama kimi gəzdik. Strabon bizi gəzləyə-gözləyə qaldı. Qayıtdığımızda kitabxana bağlanmışdı. "26-lar bağı"nda gecə işıqları fontanları nura boyayırdı. Skamyalarda bir-birinə qısılmış sevgililər pıçıltı ilə məhəbbət nəğmələri oxuyurdular... Şərqli ürəyi ilə rus dilində öz sevgilisinə Nizamidən qəzəllər oxuyan cavan oğlanın səsini də duydum.
Biz də zamanı qovub bu skamyalarda gecə işıqlarına bürünmüş fontanların şırhaşırında tez-tez görüşməyə başladıq.
...sonra ilk öpüş və həmin öpüşün ardınca səhərə kimi yatağımda yuxusuz uzanıb təkrar-təkrar beynimdən keçirdiyim müqəddəs an...
...ilk sevişmə isə əbədiyyətə qədər yaddaşımdan və qəlbimdən silinməyəcək...
...bəs ilk ayrılıq? Onu heç vaxt xatırlamaq istəmədiyim faciələrimin yanına göndərdim - itmiş, köhnə və heç kimin baş çəkmədiyi tərk olunmuş qəbiristanlığa. Başdaşısız. Qərənfilsiz. "Yasin"siz.
İndi budur, neçə ildən sonra gözləmədiyim bir gecə yarısı...
...O və mən...
...Fonda isə adamı xəyallar aləminə aparan "Düşüncə" bəstəsinin son akkordları...
*- Səni görməyimə şad oldum*.
Əlini uzatdı. 19 yaşında ikən toxunduğum bu əl (həmin əllərdə bakirəliyim qalmışdı) indi daha da sərtləşmiş, ağırlaşmışdı sanki...
...Əlini sıxdım.
*- Həyat, bax, belə bir şeydir*. Üzümə baxıb gülümsədi. Keçmiş xatirələrdən danışdı. Ayrılığı olmayan məhəbbət xatirələri... Niyə ayrılmağımızın səbəblərindən danışmadı? Yoxsa o da ömrü boyu bu ilk sevginin ayrılma səhnəsini xatırlamamağa çalışıb? Niyə birdən-birə heç nə demədən çıxıb getməsindən yox, həyata keçməmiş böyük ailə planlarımızdan danışdı? Geriyə qayıtmaq istəyirdi? Heyf, çox gecikmişdi. Heyf, lap çox gecikmişdik...
Filarmoniya bağında saatlarca oturduq. Danışdıqca mənim üçün maraqsız olduğunu anlayırdı. Hələ də evli deyilmiş. Uzun müddət Rusiyada işləyib. Ölkəyə

də bir il qabaq qayıdıbmış.
*- Ümid edirəm ki, yenə qarşılaşarıq*.
Əlini ayrılmaq üçün uzatdı. Sakitcə sıxdım. Skamyadan qalxıb üzü Parlament binasına doğru addımladı.
İflic olmuş adamlar kimi idim. Bu nə idi? Yuxu? Bəlkə mən xəyal görürəm? Hardan gəlib çıxdı bu? Niyə məhz indi? Niyə yorğanımın altında büzüşüb səhərə kimi ağladığım, göz yaşı tökdüyüm vaxtlarda yox, məhz indi?.. Elə bir vaxtda ki, həyatımda kimin olmasının, yatağımın bir yanında kimin yatmasının heç bir fərqi yoxkən. Vücuduma hansı kişinin toxunmasının... Özünə sıxıb boşalmasının...
Evə qayıtdım. Yuyundum. Yorğanıma bürünüb gözlərimi tavana dikdim. Allaha yalvardım. Bağışlanmamı dilədim. Yatdım. Və qəribə yuxu gördüm.

***
Dənizin ortasındayam. Suyun üzərində yeriyirəm. Qucağımda balaca oğlan uşağı.
- Ana...
- Sakit... yavaş ol, balam... indicə gələcəklər... səsimizi eşidib, üstümüzə tökülüşəcəklər... sus.
Uşağın ağzını əlimlə bağlayıram. O, yenə danışır. Bu dəfə heç nə başa düşə bilmirəm. Uşaq ucadan danışır. Danışdıqca səsi dənizin ortasında əks-səda verir. Bu boşluqda səs harasa dəyib qayıdır: "*Dünya sənə nifrət edirsə, səndən əvvəl mənə nifrət etmiş olduğunu bil... Mənə zülm edirlərsə, sənə də zülm edəcəklər... Çünki məni göndərəni tanımırlar...*",- dedi. Əlimi uşağın ağzından çəkdim. Uşaq danışmırdı. Nəfəs də almırdı. Ölmüşdü. Ağlayıram. Göz yaşım dənizə böyük su kütləsi kimi tökülür.
Suyun üstüylə qaçıram... Torpaq axtarıram. Tapmıram. Susamışam...

***
Yuxudan dik atıldım. Gözlərimi yenidən tavana zilləyib Allaha yalvardım. Ağladım. Bu mənim günahsız körpəm idi. Taleyimə mane olur deyə, öz əllərimlə öldürdüyüm körpə...
"*İlahi! Sən günahımı bağışla, nişan üzüyümü "Mirmöhsün ağanın evi"nə nəzir aparım*",- dedim. Səhərə kimi yatmadım. Dan yeri qızarana yaxın Məryəmin otağından hıçqırtılarını eşidirdim. Qapını döydüm. Açmadı. Qulağımı qapıya söykəyib dinlədim – hə, ağlayırdı. Otağıma qayıtdım. Sabah ağzı yenə qapısına yanaşdım:
*- Meri yemək yemirsən?*
*- Yox. Heç nə istəmirəm.*
*- Meri... Qurban olum... De, görüm axı, niyə belə oldu?*

Qapını açdı. Çantası çiynində idi. Gözləri qızarmışdı. Kədərliydi... Sifətində anlaşılmaz yorğunluq duyulurdu...
...Qərarsızlıq...
...Çarəsizlik...
...Miskinlik...
*- İnan, mən də sənin kimiyəm. Heç nə bilmirəm*...- dedi, çıxdı.
Yenə televizor. "Lider"də "KLON" serialı gedir. Özümü Hade kimi hiss edirəm. Hansısa böyük, toxunulmaz qaydaları tapdalamışam.
Qapı döyüldü. Açdım. Zaur içəri keçdi. Siqaretini yandırıb divana uzandı. Otağı tütün iyi bürüdü. Danışmırdı. İkimiz də susmuşduq. Birdən dilləndi:
- *Dərsə gedib?*
*- Hə.*
*- Nə elədin?*
...yenə çarəsizlik...
...otağı bürümüş siqaret tüstüsünün arasında gizlənməyə çalışan iki adam...
... Zaur və mən...
...Adama elə gəlir ki, bu səssizlik əbədiyyətə qədər davam edəcək...
Otağa yeni bir səs daxil olur, tualet ventilyatorunun xırıltısı...
*- Səninləyəm. Deyirəm, özündən bir şey öyrənə bildin? Nə deyir? Necə olub?*
*- Mənimlə danışmır.*
Növbəti siqaretini yandırdı. Otaqda var-gələ başladı.
*- Bunu sən öyrənməlisən. Öyrən, Təhminə! Öyrən, gör, qızımızı bugünə kim qoyub?*
...yorğundu...
...yuxusuz...
...kədərli...
...fikirli...

*- Allahın işidir, Zaur. Məgər bilmirsən, Məryəmdə heç bir günah yoxdur. Həkim dedi ki, qızımız bakirədir.*
- *Bilmirəm... Məni "Vətəndaşlar cəmiyyəti"nə prezident seçdilər. Layihəmi bəyəndilər. Həyatım boyu arzuladığım bir şey üçün imkan yaranıb... Onlar eşitsə ki, mənim qızım Allahın möcüzəsi nəticəsində hamilə qalıb, qiyamətin xəbərçisi olan kəpənəklər doğacaq...*
Əsəblərinin sakitləşməsini gözlədim... Zaur həyatında qarşısına qoyduğu böyük amallardan və onlara mane olacaq kəpənəklərdən danışdı. Mənsə tualet ventilyatorunun ahəngdar xırıltısına qulaq asdım. Zaurun ideaları ilə bu xırıltını eyniləşdirdim. Güldüm. "*Bədbəxt Zaur, hələ də Qarabağı qaytaracağına inanır"* deyə, düşündüm.
Günorta namazının azanı verilirdi. Ventilyatorun səsini dinlədim.

"*Yemək yeyirsən*",- soruşub, sakitcə mətbəxə keçdim. Geri qayıdanda o yox idi. Getmişdi. Evdən səssiz-səmirsiz çıxmışdı. Eynən anam kimi...
Yəqin gedib Allahdan xahiş etsin ki, hələlik zühur edəcək kəpənəkləri saxlasın. Qarabağ qayıtmayana kimi heç bir qiyamət baş verməsin.
İçərişəhərin dar küçələrindən birinə döndüm. Onun qapısı ağzında çoxlu qara çadralı arvadlar, dilənçilər toplaşmışdı. İçəri girdim. Nişan üzüyümü nəzirlər üçün ayrılmış yerə qoydum. Sakitcə çölə çıxdım.
*"Hansısa şərəfsiz özünə hərəmxana tikdirir... Nəzir vermə. Verirsən də bil, kimə verirsən",-* deyirdi Zaur.
Evə qayıdanda axşam azanı verilirdi. Eyvandan minarə görsənirdi. Namaz qılmadım.
Məryəm dərsdən gəlmişdi. Qapısı bağlı idi. Mətbəxdə süfrənin üstündə yemək var idi. Yeməyini yemişdi.
Yataq otağında Zaur siqaret çəkirdi. Sinəsinin üstünə qoyduğu külqabı siqaret kötükləri ilə dolu idi. Otağı kəskin iy bürümüşdü. Gözləri qızarmışdı.
Soyundum. Yorğanı üstümə çəkib ondan aralı uzandım.
*"Mirmöhsün ağanın evinə getdim. Nəzir aparmışdım... Bizi Allahdan başqa heç kim qurtara bilməz..."* - dedim. Zaur susub siqaretini sümürürdü.
...onun kədərli gözlərinə baxdım...
...Zauru sevirdim...
...O mənim üçün ər yox, bir ata, qardaş kimi əziz olmuşdu...
Külqabını çarpayının altına qoydu. Çevrildi. Çılpaq, tüklü ayaqlarını ayağıma sarıdı. Barmaqlarını dodağımın üzərində gəzdirdi. Gözlərinin dərinliyinə baxdım. Yorğundu. ...əlacsızdı...
...öpüşdük...
...onun siqaret iyi verən nəfəsi...
...protez dişləri...
...Zauru sevirəm, bəlkə ona görə qucaqladım?..
...bir-birimizə sarılıb tək bədən olduq...
...tək bir qəlb, kədəri ilə, sevinci ilə, əzabı ilə...
Xoruz banladı. Minarədən sübh namazı üçün azan verən mollanın səsi eşidildi, sanki Bilal ilk azanı verirdi. İkimiz də oyandıq. Başımı Zaurun sinəsinə qoydum. Birlikdə "İlahi çağırış"a qulaq asdıq...
...cavab vermədik...
...neçə illərdir günah içində yaşamırıqmı?...
...bəzən sübh namazı zamanı Zaurla yataqda dəli kimi sevişirdik...
...həmin an və sonralar da bizim qulaqlarımız kar, gözlərimiz kor oldu. Tanrını eşitmədik. Günahdan zövq aldıq.İblisə qoşulub şəhvətdən iniltilər çıxardıq. Bizim ehtiraslı səsimiz azan səsini batırırdı. Günahdımı? Günahmış.
*- Meri imtahanı verdi*? - Səsi kədərli idi.

*-Həkimlər nə deyəcəklərini bilmirdilər. Bunu Allahın göndərdiyi bir nemət kimi qəbul etmək lazımdır. Həkim deyir ki, belə şeylər tibb üçün hələ də naməlumdur... Ancaq bəzi qadınlar qurbağaya, dovşana oxşayan uşaqlar doğurmuşlar...*
*- Tibbdə hər şeyin çarəsi var.*
*- Meri istəmir. Deyir ki, İsa doğulacaq, nə bilim, kəpənəklər dünyanı xilas edəcək.*
*- Mən bilirdim belə olacağını. Sənə dəfələrlə dedim ki, onun otağından şəkilləri yığışdırmaq lazımdır. Bütün günü İncil oxuyur...*
Əsəbiləşmişdi. Bağırırdı.
- *Bəlkə hə? Ola bilməz?*
*- Bu seriallar sənin başını xarab edib. Kim olub belə? Harda görünüb, hamilə ola-ola bakirə qalasan? Təhminə sənə demişəm, yenə də deyirəm. Belə olmur. Olmur, başa düşürsən?*
Əl-qol atdı, gecə köynəyimin sinəsindən tutub dartdı, buraxdı...
*- Bəs Həzrəti Məryəm? Sən buna inanmırsan?*- bağırdım.
-*2000 il bundan əvvəl olmuş əfsanəyə?*
*- Aparat göstərirdi. Gördüm. Balaca baramalardı... Həkim dedi ki, bir neçə aya divarları cırıb çölə çıxacaqlar.*
Yatağından qalxıb paltarını geyindi. Qonaq otağına keçib bir müddət kanalları izlədi.
Onun həyatında böyük amalı vardı. Qarabağı almaq... Azərbaycanı dünyaya tanıtmaq. Sevirdi Azərbaycanı... O inanırdı? Hə, Zaur qələbəyə inanırdı.
Onunla neçə illik ortaq yorğanımıza bürünüb uzanmışdım. Gözlərimi tavana zilləyib yenə Allaha yalvarırdım. Ağladım.
*- Bu elə bir hadisədir ki, bir anın içində bütün dünyaya yayıla bilər. İnternet, qəzetlər, televiziyalar, hamı bu haqda danışacaq. Sonra unudulub gedəcək. Nə Qarabağ qayıdacaq, nə də Azərbaycanı dünyaya tanıda biləcəyəm... Ona görə də mən seçimimi etmişəm. Məryəmi gizlicə həkimə aparıb abort etdirmək...*
*- Meri razı olar? Axı, nə istəyirsən ey, bu Qarabağdan? Mənim başıma vətənpərvər kəsilib kişinin oğlu. Sən deyildin əsgər getməmək üçün hər oyundan çıxan"* demək istədim. Demədim. Qəlbimə, beynimin köhnə qırışlarına basdırdım.
Noutbukunu götürdü. Evdən çıxdı.
Yatağımda uzanıb qalmışdım.
... həyətdən gələn ara mahnısı otağın səssizliyin qarışırdı...
...yenidən ağlamaq və sonsuza qədər göz yaşı tökmək istədim...
...sonra zamanı geriyə çağırmaq, atamın belinə qədər qayıtmaq istəyərdim...
...boşluğa axıdılmış nütfə kimi itmək istəyərdim...
...halbuki, mənim həyatım dərk olunandır...

...varam...
...əzab çəkirəm...
...həyatın qaydaları ilə hesablaşmalıyam...
...kim, harda, niyə və necə qoydu bu qanunları?..
...bilən varmı?..

## “AZADLIQ MEYDANI”NIN YARATDIĞI ÖLKƏ...

*“.Xoşbəxtlik Qafqaz dağlarının sehirli havasını ciyərlərinə çəkməkdir.*
*Səadət bir türk kimi, azərbaycanlı kimi vüqarla sevdiyini qorumaqdır.*
*Eden bağı bitməyən neftli iyi ilə Xəzərdən əsən xəzrinin gözəlliyidir.*
*...Və əbədi həyat, ölümsüzlük Azərbaycanın hər qarışı üçün ölə bilməkdir.*
*Sevgi və öpüşün gözəlliyi “Qız qalası”nın üstündə sevgilini ilk dəfə öpməyə cəhd etməkdir.*
*Bu ilk öpüş necə də pak və müqəddəsdir”*

(The apostol)

Mən- Zaur. Bu oyunu uduzdum. Bəzən otağıma qapanıb günlərlə ağladım, üsyan etdim. Ancaq heç nə dəyişmədi. Mən yanılıbmışam. Görünür, günah məndəymiş. Mən öz həyatımı təsadüflərin öhdəsinə buraxdım. Çünki heç vaxt inana bilmədim ki, bu dünyada nə istəsən, nəyə doğru getsən, o olacaqsan. Bəs mən nəyə doğru getmişdim? Heç nəyə... Mən cəmiyyətin qoyduğu qaydalarla hesablaşdım. Öz arzularımı, məqsədlərimi qurban verdim.
"*Eh, Zaur! Sən xoşbəxtliyin yolunu tapmalısan. Bu yol hər yerdə var. Xəyallara qapılma. Onları həyata keçir",- d*eyə-deyə özümü inandırdığım günlər də olurdu.
Həyatı anlamağa başlayanda boynumda pioner qalstuku vardı. "1 may" bayramları Neftçilər prospekti boyu keçən hərbi parad və yeni il şənlikləri məni "Novruz bayramı"ndan daha çox əyləndirirdi. Ordudan təzəcə qayıtmış əsgərlərin arxasınca qaçıb nişan istədiyim günləri də xatırlayıram. Üzərində oraq-çəkicin təsviri olan qırmızı sovet bayrağını sandığımızda gizlətdiyimiz üç rəngli bayraqdan daha böyük, daha əzəmətli olduğuna inandığım vaxtları da xatırlayıram.
...utanırdım...
...10-cu sinifdəydim...
Çovğunlu, qarlı bir qış səhəri dərslərimi hazırlayırdım. Tarix dərsindən "Vəhşi musavatçılar"ın törətdikləri əməlləri ucadan, bağıra-bağıra oxuyurdum. Divarın bir küncünə sığınıb revmatizmin verdiyi ağrılardan əziyyət çəkən babamın ağladığını eşitdim.
...II dünya müharibəsində hansısa şəhərin alınmasında iştirak etmiş, sinəsi medallarla dolu "Sovet İttifaqı qəhrəmanı"...
...Ölkəsinin başına gəlmiş bütün müsibətlərdən payını almış ahıl kişi...
...Təhqir olunmaq...
...Sıxışdırılmış qəhrəman. Silahı əlində pas atmış cəngavər.
Babamı birinci dəfə idi kədərli görürdüm. Dayandım. Üzünə baxdım.
"*Musavatçılar vəhşi deyildilər..."*- dedi. Yorğundu. Sanki müharibədən evinə indicə qayıtmışdı.
Rüsvayçı şəkildə məğlub olmuş ordunun sağ qala bilmiş sonuncu əsgəri kimiydi. Özünü təhqir olunmuş hiss edirdi.
Mənliyini, ləyaqətini döyüş meydanında qoyub evinə doğru qaçmış biri kimi... Mənim kimi...
"*Burada elə yazılıb. Bilmirsən ey, baba. Bax!"-* dediyimi xatırlayıram. Sonra həvəslə kitabı ona göstərdiyimi də...
...Qorxudan susdu...
... Bu qoca kişinin evin səssizliyinə yayılan hıçqırtıları sonralar çatacaqdı mənə.

Qəlbimə və ruhuma ağır bir zərbə kimi oturacaq, qiyamətə kimi ayağa qalxmayacaqdı.
Babam həqiqəti bir neçə il sonra anlatdı. Bir həqiqət ki, bütün həyatımı qurban verməyə hazır olduğum "azərbaycançılıq" ideyasının ilk toxumu olacaqdı.
...Niyə gerçəyi öyrənəndə babama nifrət etdim?..
...Bütün olanları vaxtında öyrənsəydim nə dəyişəcəkdi ki?..
...Kremlin qapıları ağzında dayanıb: *"Tüpürüm sənə, Rusiya, mənim xalqımı məhv etdin* "mi deyəcəkdim?..
...Ya Ermənistana gedib ulu babalarımın iztirablarından yoğrulmuş İrəvanın şəhər meydanlarının birində: *"Şərəfsiz ... çörəyi dizində olan erməni",-* bağıracaqdım?..
Bəlkə də, bunların heç birini etməyəcəkdim. İçdən-içə qırmızı bayrağa, Leninə, Engelsə, Marksa, sovet ideologiyasına və onun əlaltısı, erməni xalqına nifrət edəcəkdim.
...Ya da azərbaycanlıları qırdığı üçün adı Bakıda böyük küçələrə verilmiş erməni sərkərdələrinin barelyefini söküb atacaqdım...
...Ən azı bunu edəcəkdim...
...Edə bilərdimmi?..
...Həqiqəti öyrənəndə sovetin,"KQB"nin və hansısa zir-zibilin qorxusundan susmadımmı?
...Susdum. Arvad kimi xəstəliyimi və başımda psixi travmanı bəhanə gətirib "orduya yararsızdır" yazılı hərbi bilet aldım.
...Şair dostum gözəl deyirdi*: "Tüpürcəyini udan adamdan qəhrəman olmaz"...*
...Mən də udurdum. Cəsarətimlə birlikdə...
Sənədlərimi Azərbaycan Pedaqoji institutuna verdim. Filologiya fakultəsinə qəbul olundum. Universitetin ikinci kursunda oxuyanda qırmızı bayrağı ilə öyündüyüm imperiya mənə növbəti zərbəni vurdu. Böyük dayım Azad Nurun Sibir çöllərinə sürgün olunduğunu öyrəndim. Neçə illik bir ailə sirri açılmışdı. Anam bərk-bərk tapşırırdı ki, heç yerdə bu haqda danışmayım. Dayım Leninin heykəlinə: *"Sənə nifrət edirəm, şərəfsiz"*- deyib üzünə tüpürmüşdü. Sonra "KQB" gecə döyülən qapılar siyahısına bizim evi də salmışdı.
Azan səsinin kilsə zənglərinə qarışdığı və kilsə danqıltılarının daha ucadan çıxdığı İçərişəhərin küçələri ilə dayımı sürüyüb aparmışdılar.

...Sibir çöllərində sürgün olunmuşlara azadlıq nəğmələri oxuyurmuş."Mən türkəm. Boz qurd mənim tapınağımdır ",- deyirmiş...
...sonrası?..
...sonrası nənəmin səhər-axşam gözlərini dikib ümidlə baxdığı taxta qapı...

...sonrası qapımızın astanasına ayaq basıb kommunal xərclərin kağızını gətirən poçtalyondan yalvarıb məktub istəməyimiz..
...sonrası bizi də apararlar qorxusu ilə dayımın əlyazmalarını yığıb KQB-yə daşımağımız. Və hər yerdə onun necə amansız, murdar biri olduğunu danışmağımız...
...sonrası kədər, göz yaşı, izdirab....
Babam həmişə qorxa-qorxa onun haqqında deyərdi ki, *dayının qiymətini nə vaxtsa biləcəklər.*
Mənsə sovet hökümətinə qarşı azadlıq şeirləri yazan bu adamın qiymətini kimin nə vaxt biləcəyi sualı üstdə baş sındırırdım...
Aldanmışdım. Lenin, sovet hökümәti hamı kimi məni də aldadtmışdı, Nigarı da...
...mənim ilk eşqim...
...ilk məhəbbətim...
...həyatımda yeganə müqəddəs və bütün günahları bağışlanacaq dərəcədə sevdiyim qadın...
...elə bir qadın ki, onun uğrunda kamikadze də olardım, ancaq alınmadı. Niyə? Sevmişdim axı... Ən ülvi məhəbbətlə sevmişdim. İzdirablarla sevmişdim. Məcnun kimi sevmişdim.
Nigarla eyni qrupda oxuyurduq. İmadəddin Nəsimini sevirdi. Bir də "Vağzalı"nı. "*Nəsimi nə istədiyini bilən adam olub*"- deyərdi. Ona qibtə edərdi. Ancaq heç vaxt Nəsimi kimi əqidəli, dönməz və yol adamı ola bilmədi. Başqalarının onun üçün yazdığı ssenariyə əsasən yaşadı.

İsti yay günüydü.
Səma buludsuz... Saat 2-3 radələri. Nigar və mən. Həyəcanlıyam. Bütün dünya başıma fırlanır.
"Qız qalası"nın bacasından Xəzərə baxırdıq. Gizli, naməlum tarixi olan "Qız qalası"... Birdən alındı. Təsadüfən oldu. Onu öpdüm. İlk dəfə bu qədər sevdiyim birini yanağından öpdüm. İlk dəfə bir qıza: *"Səni sevirəm"* - dedim. Nigar qorxmuşdu. Başını aşağı salıb spiralvari pillələrdən qaçaraq düşdü. Ağlayırdı. Iki həftə dərsə gəlmədi. Sonra küs oldu mənə. Dərs qurtaran kimi arxasınca düşüb "Araz kinoteatrı"nın yanına kimi gəldim. Yalvardım. Söz verdim ki, bir də öpməyəcəm. Barışdıq.
- *Yeni film var.*
*- Hind kinosudur?*
Göz yaşı axıda biləcəyi filmləri sevirdi.
*- Yox, Dədə Qorqud*.
Baxdıq. Dış oğuzlar 40 incəbelli qızla Burla xatunu aparanda Nigar əlimdən tutdu. Başını çiynimə qoydu. Saçları elə gözəl qoxurdu ki...

*- Zaur, səni sevirəm.*
*- Mən də... Niquş, mən də*. Nigarımın saçlarından öpdüm. Həmin vaxt Qaraca Çoban Dış oğuzlara qarşı vuruşub Salur Qazanın obasını qoruyurdu. Öz sədaqətini, sadiqliyini göstərirdi.
Salur Qazan gəldi. Vuruşdu. Oğuz eli 40 incəbelli qıza və Burla xatuna yenidən qovuşdu. O, namusuna yaxılmış ləkəni sildi.
...Sonda Dədəm Qorqudun qopuzu dilləndi...
...bu nəğmə oğuz elinin qələbə marşı yox, Nigarla mənim eşq dastanımızın vüsalını vəsf edirdi. Bəlkə də mənim məhəbbətimə nəğmələr qoşduğu üçündür Dədə Qorqudu sevirəm...
...xoşbəxtlik belə bir şey olmalı: sevdiyinlə əl-ələ gəzişmək...
...ayrılıqsız məhəbbət olmurmu?..
...olmurmuş...
Bir neçə aydan sonra atasının təkidi ilə bir yəhudiyə ərə getmişdi. Mənə heç nə demədən səssizcə evlənib getdi. Həftələrlə axtardım, tapmadım.
Günəş Xəzərin arxsında gizlənəndə mənim sevgi yasım başlamışdı. Telefonu otağıma çəkib gətirdim. Pəncərələri açdım. Xəzərə, Bayıl buxtasına, Bakıya baxdım.
*- Alo, bağışlayın, Nigar evdədir?*
-*Yox, kimdir?*- yaşlı, kübar qadın səsi...
*- Qrup nümayəndəsidir. Nigar dərsə gəlmir*.
*- Hə, bala Nigar evlənib...*
Telefonun dəstəyini yerə atmışdım. Qadın nə isə danışırdı. Heç nə xatırlamıram. Beynimdə oyanan Nigarlı xatirələrdən başqa...
Pəncərələri xəzrisinin üzünə bağladım. Gilavarına da bu qapını döyməyi yasaqladım.
Radionun xırıltılısının fonunda Flora Kərimova oxuyur...
... “Nə gəlməz oldun”...
Onunla birlikdə mahnının çox sevdiyim yerlərini pıçıldadım.
“Qayıt, yerinə qoy ayı, günəşi.
Qayıt, sahmana sal bu kainatı.
...nə gəlməz oldun...”
Həmin gecə Bakının Nigarla dolaşdığımız hər küçəsini təkrar-təkrar beynimdən keçirdim.
...İçərişəhərdə Qala divarlarının pəncərələri...
...Dənizkənarı bulvar...
...Qız qalasının sipralvari pilləkənləri...
...və unudulmaz xatirələr. Gizlin sevişmələr. Sınaqdan keçirilən öpüş növləri. Dadına doymadığım, bizə görə, öz icadımız olan şokoladlı öpüş.
Sonuncu dəfə onunla 4-cü kursda oxuyanda qarşılaşdım. Dəyişmişdi. Bu

mənim Nigarım deyildi.
...gözlərinin altındakı yorğunluğu...
...yanındakı körpənin məsuliyyəti...
...ikinci dəfə ana olmağa hazırlaşan Nigar...
Sonralar onunla qarşılaşmağımızı “Issız adam” filminin son kadrına oxşatdım. Həmin səhnə məni elə üzdü ki...
Orada iki köhnə sevgili kinoteatrda qarşılaşır.
...təlaş...
...çaşqınlıq...
...yadlaşma...
...və ortalığa tökülmüş doğmalıq... Həyat nə qədər bəsitmiş, adi, sıradan imiş...
Biz də elə idik. Bir-birinə əziz olan iki insanın aşa bilmədiyi sərhədlər... İlahi, bu necə dəhşətli duyğudur?! Sən sevdiyin, uğruna ölümə getməyə hazır olduğun birinin gözlərinin içinə baxırsan, ancaq əlindən tuta bilmirsən.
- *Siz hələ bitirməmisiniz?*
*- Biz?.. Mən hələ bitirməmişəm. Axı bir qrupda oxuyurduq,-* deyə, küskün-küskün dilləndim.
*- Baxın, oğlumdur. Bu yay iki yaşı tamam olacaq.*
Oğluna gözucu baxdım. *“Hə, nə yaxşı”,-* dilucu dedim. Birdən beynimdə dəhşətli bir xatirə canlandı. Unutduğumu sandığım bir xatirə.
...dəniz vağzalı...
...Nigar və mən...
Gəmiyə minirik. Kiçik ekskursiya gəmisi. Xəzərin neft qoxan iyini ciyərlərimizə çəkirik. Və planlar qururuq. Bura elə-belə gəlməmişik... Böyük oğlumuz dənizçi olacaq. Onun iş yerini görməyə gəlmişik...
Yenidən anlayıram ki, bizim böyük oğlumuz doğulmadı. Gözlərimi Nigarın körpəsinə dikmişəm. Kədərliyəm. Uşaq saf-saf baxır. Gülümsünüb ardınca da susur.
*- Çox dəyişmisiniz...*
*- Sən də elə... Niyə heç nə demədin? -* pıçıltı ilə soruşdum.
*- Məgər hər şeyi bilmirsən?* - dedi. Baxışlarını yerə dikdi.
Susdum. Bilirdim. Ancaq özündən də eşitmək istəyirdim.
*- Bağışlayın... Gecikirəm...*- Oğlunun əlindən tutdu. Kafedralardan birinə girdi.
İlahi! İnsan ilk dəfə sevəndə niyə belə olur?!
Biz onunla elə gözəl xəyallar qurmuşduq ki...
“26-lar bağı”nda saatlarla gəzişdiyimiz, skamyalarında oturub kiçik evimiz, doğulacaq uşaqlarımız barədə uzun-uzadı məsləhətləşdiyimiz Bakı payızı...
Bu qədim şəhər bizim eşqimizi yaşadacaqdı. Ona görə də hər yerə “Nigar +Zaur= Eşq” yox... əbədi və ilk məhəbbət... yazmışdıq.

Nigar xatirə dəftəri tutmuşdu. Birinci səhifədə qırmızı hərflərlə yazmışdı. Nigar+ ...= əbədi məhəbbət.
Mən öz adımı görmədim...
*- Nə bilim... Qorxdum. Birdən kiminsə əlinə düşər.*
*- İncidim... bilirlər, bilsinlər... Məgər mən bundan qorxuram?*
...20 yaş...
...həyatı xəyallarına görə quran biri...
...20 illik ömrümün ilk məhəbbəti olan Nigarımın xatirə dəftərində adım yox idi...
İlk dəfə həmin gecə otağıma qapanmışdım. Səhərə kimi yatmadım. İlk dəfə həmin gecə atamın “Ağdam” markalı siqaretindən birini oğurlayıb çəkdim. Ucuz tütün iyi otağımı doldurmuşdu...
...Nigarımın əzalarını beynimdə canlanıdırıb 31 çəkmişdim... sanki ondan beləcə intiqam alırdım...
...Halbuki, mən ilk məhəbbətimi 31 çəkməklə ləkələyirmişəm... Boşalmaqla Nigarımın beynimdəki sirrini, müqəddəsliyini çirkləndirirmişəm.
İlahi! Beynimə nələr gəlməmişdi?!. Mənim ilk məhəbbətim o üç nöqtə ilə bitmişdi. Məgər hər şey aydın deyildi? Nigar üçün “+”-dən sonra kimin gəlməsinin fərqi yox idi. Axı biz Qız qalasının divarlarına elə yazmamışdıq. İçərişəhərin yıpranmış taxta qapılarına da elə...

“Nigar + Zaur = əbədi məhəbbət”

Universiteti bitirdim. Nəşriyyatda işə düzəldim. Yeni həyatım başladı. Bu o vaxtlar idi ki, insanlar aldadılmaqdan bezmişdilər. Açıq-aşkar öz talelərini yazmaq istəyirdilər. Mən də daha çəkiclə orağın təsviri olan qırmızı bayrağı sevmirdim. İndi sandığımızda gizlətdiyimiz üçrəngli bayraq daha əziz və toxunulmaz idi…
“Buna qorxa-qorxa baxmaqdan bezdim”,- deyə, babam bir gün açdı sandığı... bayrağı çıxarıb divardan asdı. Və çoxdan öyrəndiyim həqiqəti mənə danışdı. Daha türk olduğuma görə utanmırdım.
Nəşriyyat maraqlı yermiş. Həyatımı dəyişən böyük hadisələr baş verdi. Təhminə nəşriyyata yeni gələndə hamı kimi mənim də diqqətini çəkmişdi... Öncələri onu yüngül, qarşısına çıxan hər kişi ilə yatan qadın kimi görürdüm. Zamanla sevdim. Evləndik. Məryəm dünyaya gəldi. Təhminə ilə keçən günlər Nigarla keçən günlərim qədər müqəddəs deyildi. Bəlkə də ona görə ki, qadınları öyrənmişdim...
...Xəyanətkar...
...İradəsiz... İlk bahar mehi kimi əvvəlsiz, arxasız... havadan asılı bir görünməzlik...

Bir səhər oyandığımızda xəbərlərdə dəhşətli hadisə haqqında danışılırdı. Ağ-qara ekranlı televizordan çıxan xırıltılı səs:
*"Hörmətli tamaşaçılar! Bu gün Ermənistanda dəhşətli hadisə baş verib. İrəvan şəhərində, sərnişin avtobusunda bir erməni, həmyerlimizin balaca körpəsini ağladığını bəhanə gətirərək pəncərədən atıb".*
Ermənininin balaca körpəni pəncərədən atması, ardınca da: "*Lənətə gəlmiş türklər*"- deyib bağırması hər şeyi dəyişdi. Bu kiçik qığılcım böyük yanğınlara səbəb oldu.
Həmin gün havanın necə olması yadımda deyil. Bilmirəm.
...soyuq...
...küləkli...
...yağışlı...
...nə fərqi var?..
Kimsə elan etmişdi ki, *"bütün xalqlar öz müqəddaratını həll etsin"*.
Atam ölmüşdü. Otağın ortasına uzanmış nəşi evimizi göz yaşlarına bürüdü. Mən tək qaldım.
Biz necə həll edəcəkdik? Babam revmatizm ağrılarından əziyyət çəkir, atamın ölümünə ağlayır, "xalqın taleyi"nin sonrasını gözləyirdi. Mənsə sevinirdim. Çünki daha üzərində oraq-çəkic təsvir olunmuş qırmızı bayrağın əzəmətinə aldanmayacaqdım. Oysa ki, göz yaşı, izdirab, haqsızlıq hələ qabaqda imiş...
Atamı dəfn etdik. Anam çox ağladı. Mən "Azadlıq meydanı"na qaçdım. Bu həmin meydan idi ki, həftələrlə qaladığımız tonqalların böyür-başında isinir, bizi gözləyən taleyi götür-qoy edirdik.
...xaos...
...başsızlıq...
...qorxu və qəhrəmanlıq qarışıq bir hiss...
...Tribunaya çıxan adamların sifətləri kimi fikirləri də dəyişirdi...
Evləndikləri gün, nikah masasına oturmamış ailələrimizin qarşısına gül-çiçək qoyub şəkil çəkdirdikləri heykəllər dağıdıldı. Leninin boğazına keçirilən ip onu "Azadlıq meydanı"na uzatdı. Hamımız: "Azadlıq, Azadlıq!" – bağırırdıq.
Bizi meydanlara tökən 70 illik əsarətin utancından qurtulmaq cəhdi idimi? Niyə "Gülüstan müqaviləsi"ndə etiraz etmədik?
Niyə "Türkmənçay müqaviləsi"ndə meydana tökülüb, bizi ata malı kimi bölənlərin üzünə tüpürmədik? Nə yaxşı ki, özümüzə gəldik. Heç olmasa neçə illik günahımızı bir damcı su ilə də olsa yumağa cəhd etdik. Bacardıq. Bacardıqmı?!.
*"Bu ölkə o meydanda yarandı", -* saqqalı şair atəşkəsdən sonra televiziya verilişlərinin birində mikrofona bağıra-bağıra deyirdi.
Sonralar həyartımda çox şeyə görə özümü sevməyə başladım. Özümlə fəxr etdim. Bunlardan ən birincisi meydana yığışmış yüzlərlə adamın arasında

mənim də olmağım idi. Və verdiyim bir qərar... Elə bir qərar ki, buna görə özümlə əbədiyyətə qədər fəxr eədəcəyəm.

...Bakıya çökən vahiməli qaranlıq məni qorxutdu...
Meydandan bir neçə saatlığına evə qayıtmışdım. Evdəkilər nə isə müzakirə edirdilər. Anam Təhminəyə bağırır, ona etiraz edirdi:
*- Heç vaxt... Bunu bir dəfəlik yadından çıxar!*
*- Ana, qurban olum. Axı yeganə çıxış yolumuz getməkdir. Bir azdan ermənilər, ruslar bütün ölkəni ələ keçirəcəklər... İstəyirsən ki, yenə əvvəlki kimi ən yaxınlarımızı tutub Sibir çöllərinə sürgün etsinlər?*
- *Nə olub?* - dedim.
Təhminə Londondan gəlmiş bir teleqramı mənə uzatdı.

Teleqram:

"*Salam, Zaur. Mən Londondayam. Bütün işlər hazırdır. Sizin üçün də viza açdırmışam. Ayın dördünə hamınıza bilet almışam. Hava limanında qarşılayacağam.*
*Dayın Elnur"*

Şuşa şəhər mədəniyyət şöbəsinin katibi çalışan dayım muzeylərdəki eksponatları yığıb Londona qaçmışdı. Özünə Londonun mərkəzi küçələrinin birində ev və bir neçə mağaza almışdı. Bizi isə "qurtarmağa" çalışırdı.
- *Alçaq, öz şərəfsizliyi bəs deyilmiş kimi bizi də öz yoluna sürükləyir",-* babam cuzamlı xəstələr kimi zarıyır və dayımı söyürdü.
- *Yox, heç kim heç hara getmir,-* dedim.

Saat 8:30-da dayıma cavab teleqramı göndərdim:

*"Salam, dayı. Qarabağı ermənilər alıblar. Sizin evi də dağıdıblar... Biz gəlmirik...*
*Hörmətlə, Zaur".*

...Nəşriyyatın qaranlıq, tutqun dəhlizləri...
...Yorğun qəzetçilər...
...Bu dəhlizlərdə qarıyıb-qocalmış makinaçı qızlar...
Hər şey dəyişmişdi. Sanki hər kəs yenidən doğulmuşdu.
Beynini sovet ideologiyası ilə doldurmuş Məmməd Nəsir, Dadaş dəli olmuşdular. Saatlarla oturub televiziyalardan, radiodan, ya da "Azadlıq meydanı"ndan gələn adamlardan eşitdikləri xəbərləri müzakirə edirdilər. Heç

kim onu nə gözlədiyini bilmirdi.
Redaksiyaya girdim. Direktorun qapısı ağzında oturmuş qara, qısa saçlı katibə Karmen makinada nəsə yazırdı.
*- Karmen, eşitdim işdən çıxırsan?*
*- Hə. Atam Türkiyədən təklif alıb. Universitetdə dərs deyəcək. Ankaraya köçürük.*
*- Qaçmaq üçün əla vaxtdır,-* dedim. Güldüm. Karmen isə qızardı. Başını aşağı salıb makinanın düymələrini döyəclədi.
"Dünya fəlsəfəsi tarixi" üzrə elmlər doktoru, BDU-nun professoru Muxtar Mehtiyevin qızı Karmen... Bu həmin Muxtar Mehdiyev idi ki, bir çoxlarının əsərlərində sosializm ideologiyasının əleyhinə yad fikirlər tapıb Sibir, Qazaxıstan çöllərinə sürgün etdirmişdi. İndi isə Türkiyəyə qaçırdı.
Nəşriyyatdan çıxıb prospekt boyu yeridim. Düşündüm. Nəyinə lazım idi axı, bu balaca ölkədə meydana getmək, "Azadlıq, Azadlıq!!!"- bağırmaq. Vuruşmaq. Muxtar Mehdiyevə İstanbul lazım idi. Asma körpüdən keçmək... Ankaranın küçələrində yerimək... yaşamaq lazımdır... yaşamaq...
Mən gedə bilməzdim axı...
...xatirələrim...
...gəncliyim....
...ilk dəfə sevdiyim zaman divarına söykənib Nigarı öpdüyüm Qız qalası...
... Xəzərin neftli sularında tilovumla tutub təkrar dənizə buraxdığım balıqlar...
Geridə gör nə qədər şey qalırdı.
Məgər mən Molla Pənah Vaqifin əlyazmaları, Qarabağ xanlarının şəxsi əşyaları, türklçülüyümüzün və azəriliyimizin sübütü olan əşyaları, keçmişimi hansısa ingilisə satıb qazandığım pullarla yaşaya bilərdimmi?
...bacarardımmı?..
...bacarmazdım...
...Vicdan əzabı deyilən duyğu məni ömrümün sonuna kimi parçalayardı, didib parça-parça edərdi. Hissələrimi bulvar boyu yayardı, qiyamətə qədər görk oldun deyə...
Məryəm böyüyürdü. Təhminəni isə daha çox sevməyə başlayırdım. Günahlarını başa düşdüyünü anlayırdım.
Xocalı qətliamı törədiləndən sonra babam öldü. Göstərilən kadrlardan kişinin ürəyi dayandı.
"Utanıram, utanıram..."- deyə-deyə, ağlayırdı. Həmin hadisələr məni də utandırmışdı. Sonralar Çingiz Mustafayevin ağlaya-ağlaya çəkdiyi o kadrlara baxanda babam qədər qeyrətli olmadığımı anladım. Çünki mən ölməmişdim.
...zorlanmış körpə qızcığaz...
...qarnı yarılıb körpəsi çıxarılmış hamilə qadın...
...kişiliyi kəsilib ovucuna soxuşdurulmuş ahıl kişi...

...sinəsinə xaç damğası vurulmuş təzə gəlin...
...və bitmək bilməyən kədərli, utancverici səhnələr...
90-cı illəri həyatım boyu unutmayacağam. Babam gözəl deyirdi: "*Bu millət zorla manqurtlaşdırılıb. Onun kim olduğunu yadına salmaq lazımdır. Yoxsa yolunu azacaq".* Zamanla onun dedikləri düz çıxdı... Biz yolumuzu azdıq. Biz özümüzə özgələşdik.
Uzun və yorucu mitinqlərin, qeyri-bərabər müharibənin və qırılan yüzlərlə azərbaycanlı ahının gecənin qaranlığına ucaldığı bir vaxtda dan yeri söküldü.
Boz qurt qayalığın zirvəsində dayanıb aya doğru uladı. Və günəş nurunu Bakıya səpələdi. Xəzər parıldadı. Məgər bu günəş tək Xəzərin üzünü güldürmüşdü? Yox. Hamımız gülümsədik. Sevindik. Ancaq sonra bu sevinc uğultusu öz yerini kədərə və məğlubiyyətə verdi. Sonra rəzalət və düşmənə səssizcə boyun əyib "atəşkəsdəyik" dedik.
O, gəldi. Atəşkəs elan olundu. Bütün dünya Azərbaycan adlı ölkənin müstəqilliyini tanıdı.
Sonralar "Vətəndaşlar cəmiyyəti"ndə xalqın başına gətirilmiş faciələri, erməni vandalizmini ikimərtəbəli evlərindən lüt-üryan qaçan adamlar göz yaşı ilə danışırdı.
Biz "Azadlıq" meydanında and içmiş adamlarıq. Burada bizi iki şey birləşdirir.
...Azərbaycançılıq...
...Qarabağ...
Bu uğurda çox qurbanlar verdim. Məryəmimi də... Ancaq heç vaxt peşmançılıq hissi keçirmədim. Çünki mənim üçün Qiyamət günü Qarabağdan önəmli deyil.
Deyilmi?
Bilmirəm...
Bəlkə də "deyil", Bəlkə də ...

*İblislərin "Quran-i-kərimi"*

*"Kölə edilmədimi insanlar, yüzillərlə cinsi istəklərindən uzaqlaşdırılaraq?*
*İki cinsi ayıran dini baxışlar deyilmi seksual azlıqları yaradan?*
*Yüzillərlə namusunu ləkələmədilərmi, xədim etmədilərmi gözəl oğlanları?*
*...Və qadınlar bir-birindən yarınmağa məcbur edilmədimi hərəmxanalarda?*
*Şəhvət hissindən qorxub özlərini yarıminsan etməyə çalışmadılarmı dərvişlər, kişi və qadın olaraq...*
*Ən adi şəhvət hissindən uzaq dayanan adamı əziz və müqəddəs hesab etmədikmi?"*

*(the apostol)*

Əgər həyatımız boyu yaşayacaqlarımızı, hiss edəcəklərimizi bilə bilsəydik xoşbəxt olardıqmı? Bütün yaşadıqlarımız Tanrının diktəsi ilə olursa insan iradəsi nəyə lazımdır? Bu əsər kimi həyatımız da cavabı verilməyən suallarla dolu deyilmi?..

Hansınız inanırsınız ki, müqəddəslər həqiqəti dərk edib? Onun yanına qalxıb, əllərini Ona toxundurublarmı?

Mən inanmıram. Müqəddəslərin bizdən yeganə fərqi Allahı daha çox görmək istəmələri idi. Onlar Tanrıdan öz sirrini açmasını istəyirlər, mənim kimi adi insanlar isə Onu görməkdən çox öz talelərinin dərdindədirlər.

...bizi nə gözləyir?..

Allah məni cənnətə, yoxsa cəhənnəmə göndərəcək?

Eden bağına düşmək üçün gündə 5 rükət namaz bəs etmirmi?

Eden bağında Allahdan oğurladığı torpaqları satan bələdiyyə yoxdurmu? Görəsən, o oğurluq torpaqlara balaca bir “gecəqondu” tikə bilərəmmi?

...ikiüzlülük...

...riyakarlıq...

...abırsızlıq...

Hamımız axırda xəbisliyimizin qurbanı olacağıq. Çünki neçə min ildir Allahı dərk etməkdən, onun necəliyini anlamaqdan çox, cənnətdə bizi gözləyən Huri-Qılmanların seksual fəallığını düşünməklə məşğuluq. Biz gözəl insan olmaqdan çox fəal aşiq olmağa çalışırıq.

...gözəldir cənnət...

...orada əbədidir xoşbəxtlik...

...bəs cənnətdə darıxmayacağıqmı?..

...bezdirməyəcəkmi bizi xoşbəxtlik, eyni xassəli duyğular?..

...bu da yüzlərlə cavabsız suallardan biri...

Mən baxıcılara inanırdım. Yəqin ümid verdikləri üçün idi. Taleyimi, sonramı və sonumu özlərindən arxayın-arxayın danışdıqları üçün idi.

...Və əməlləri ilə Tanrının işinə mane olacaqlarını, bununla da xoşbəxtliyi nələrinsə köməyi ilə əldə edə biləcəkləri inancında olduqları üçün idi.

Axı mənim dərdimi aça biləcəyim kimim vardı? Heç yol göstərənim də yox idi. Onlar isə mənə deyirdilər:

“*Təhminə bunu belə et”.*

*“Bu duanı Məryəmin burasına tik”.*

*“Qurd yağını Zaurun alt paltarına sürt”.*
Mən də bunların hamısını edirdim. Etdiklərimin istəyimə çatmaqda mənə kömək edəcəyinə inana-inana. İçdən bir əminliklə. Hüzurla. Ümidlə.
Həyatımda qarşımıza çıxan möcüzələr qorxu filmlərinin ilk səhnəsi kimidir. Hər şey izahsız, qorxulu bir effektlə başlayır. Sonda isə qan, kədər, üzüntü və nəhayət ”Happy end” gəlir. Mənim həyatımda qarşıma çıxan möcüzə bədbəxt sonluqla bitdi.
Hər şey Space TV-də “ekstraseans” verilişinə zəng vurandan sonra oldu. Verlişdən bir həftə sonra günorta mənə zəng gəldi:

-*Bağışlayın. Mirmehdidir sizi narahat edən.*
*- Kim?Tanımadım.*
*- “Space”dəndir. Taleyinizi öyrənmək üçün zəng etmişdiniz.*
*- Hə, xatırladım, eşidirəm sizi.*
*- Sizin üçün Quran açdım... Təhminə xanım, müqəddəs kitablar həmişə həqiqəti deyirlər...*
*- Başa düşmədim.*
*- Taleyinizə Quranla baxdım. Çox qəribə şeylər görürəm. Mütləq görüşməliyik... Üç gündür sizin üçün çıxış yolu axtarıram.*
...Görüşdük...
Qala qəsəbəsində, yaşayış evlərinin bitdiyi balaca daxmada idi. Otağın divarlarına vurulmuş rəsimlər məni qorxutdu. Ürəyimə qəribə sıxıntı gətirdi.
...Əlində qum saatı tutmuş ağsaqqal, nurani qoca, gözündən qan damır... Afişanın altında böyük hərflərlə yazılıb: “My name is GOD”.
...Uzun dırnaqlı, qara əlbisəli, qara qanadlı qız. Gözəldir. Maraqlı üz cizgiləri var. Təbbəssümü Mona Liza kimi izahsız və təsiredicidir. Afişanın altında mozaik şriftlə yazılıb: “I like to be DEMON”.
O, mənim rəsmlərə diqqətlə baxdığımı görüb güldü.
“Bunların hər ikisi eyni adamdır”- dedi. Dodaqaltı nə isə mızıldandı. Gözucu mənə nəzər yetirdi.
Masasının üstündəki köhnə kitabların arasından “Quran”ı götürdü. Açdı.
“Hz.Məryəm sürəsində yazılıb”,- dedi.
...susdum...
Bir anlıq gələcəkdən xəbər verən bu adamın kimliyi barədə düşündüm...
...Onlar doğurdanmı Allaha qarşı çıxıb onun yazdıqlarının yönünü dəyişə bilirlər?..
...Bəlkə də bilirlərmiş...
...Həqiqəti, sonu və ondan sonranı görürmüşlər...
Mirmehdi “Məryəm sürəsi”ni oxudu. Diqqətlə qulaq asdım. Çünki onun oxuduğu sürənin tilsimli səsinə cinlər toplaşır, Allahın düşüncəsinə girib

Məryəmimi gözləyən taleyi Mirmehdinin qulağına pıçıldayırlar...
“*... Bu sənin Rəbbinin Öz qulu Zəkəriyyaya göstərdiyi mərhəmətinin yada salınmasıdır.*
*...Bir zaman Zəkəriyya Rəbbinə gizlicə dua edib demişdi: "Ey Rəbbim! Artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə etdiyim dua sayəsində heç vaxt bədbəxt olmamışam. Mən özümdən sonra gələn qohumlarımdan dinə etinasız yanaşacaqlarından qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o, həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o, Sənin razılığını qazanmış olsun!"*
*Ona belə vəhy olundu: "Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı ondan öncə kimsəyə qoymamışıq!"*
*O , dedi: "Ey Rəbbim! Zövcəm sonsuz bir qadın ikən özüm də qocalığın son həddində olduğum halda mənim övladım necə ola bilər?"*
*Mələk dedi: «Bu belədir, lakin Rəbbin buyurdu: "Bu, mənim üçün asandır. Axı əvvəlcə sənin özünü də sən heç bir şey deyilkən xəlq etmişdim!"»*
*O, dedi: "Ey Rəbbim! Mənim üçün bir əlamət müəyyən et". Allah buyurdu: "Əlamətin budur ki, sən sağlam ikən üç gecə adamlarla danışmayacaqsan!"*
*O, mehrabdan öz qövmünün qarşısına çıxıb onlara işarə ilə başa saldı: "Səhər-axşam Allaha təriflər deyin”.*
*Yəhyaya da: "Ey Yəhya! Kitabdan möhkəm yapış!"– deyə, vəhy etdik. Biz ona uşaq ikən hikmət bəxş etdik .Üstəlik Öz tərəfimizdən bir şəfqət və paklıq da bəxş etdik. O, müttəqi idi.*
*...Həm də ata-anasına qarşı qayıkeş idi, lovğa və asi deyildi..*
*Doğulduğu gün də, öləcəyi gün də, yenidən dirildiləcəyi gün də ona salam olsun!”*
Mirmehi dayandı. Gözlərini yumdu.
*“Sən heç kimin köləsi deyilsən”,-* dedi...
...Qarışıq, anlaşılmaz hərəkətlər etdi...
...Qəribə, dərin qəhqəhə çəkdi...
...Qorxdum...

- *Cinlərim mənə göstərdilər... gördüm*.
- *Nəyi?*
- *Qızınız seçilib. Artıq çox gecdir... Qanadlıları gördüm. Körpə səsi eşitdim... Müqəddəsləri gördüm...* “Məryəm surəsi”nin davamını oxumaq istəyirdi.
- *Nə olacaq?.. Məryəmi xilas edə biləcəyikmi?-* dedimsə də eşitmədi, ya da dediklərimin hamısını qulaqardına vurub oxumağa başladı.
“*Kitabda Məryəmi də yada sal. O zaman o, ailəsindən ayrılıb şərq tərəfdə olan bir yerə çəkilmiş və ibadət vaxtı onlardan gizlənmək üçün pərdə tutmuşdu. Biz*

*Öz Ruhumuzu (Cəbraili) onun yanına göndərdik. O, Məryəmin qarşısında kamil bir insan surətində peyda oldu.*
*Məryəm: "Mən səndən Mərhəmətli Allaha sığınıram! Əgər müttəqisənsə mənə toxunma".*
*Mələk: "Mən sənə ancaq pak bir oğlan bəxş etmək üçün Rəbbinin elçisiyəm".*
*Məryəm: "Mənə bir insan toxunmadığı və özüm də zinakar olmadığım halda, necə mənim övladım ola bilər?"*
*Mələk: «Bu belədir, lakin Rəbbin buyurdu: "Bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik. Bu, hökmü verilmiş bir işdir".*
*Məryəm uşağa qaldı və bətnindəki ilə birlikdə gedib uzaq bir yerə çəkildi.*
*Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykənməyə vadar etdi. O dedi: "Kaş bundan əvvəl öləydim və bir dəfəlik unudulaydım!"*
*Məryəmin aşağı tərəfindən (İsa və ya Cəbrail) onu səsləyib dedi: "Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı.*
*Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün.*
*Ye, iç, gözün aydın olsun! Əgər insanlardan kimisə görsən de: "Mən Mərhəmətli Allaha oruc tutmağı nəzir etmişəm. Odur ki, bu gün heç kimlə danışmayacağam".*
*Məryəm körpəni qucağına alıb öz tayfasının yanına gətirdi. Onlar dedilər: "Ey Məryəm! Sən yaramaz (və ya görünməmiş) bir iş tutmusan.*
*… Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun deyildi"…*
*Məryəm ona işarə etdi. Onlar dedilər: "Beşikdə olan körpə ilə necə…*
*Körpə dil açıb dedi: "Həqiqətən də, mən Allahın quluyam! O, mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də məni anama qarşı qayğıkeş etdi, məni lovğa və bədbəxt etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!"*
*Barəsində şübhəyə düşdükləri haqq söz olan Məryəm oğlu İsa budur.*
*Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə ona ancaq "Ol!"– deyər, o da dərhal olar.*
*İsa dedi: "Həqiqətən Allah həm mənim Rəbbim, həm də sizin Rəbbinizdir. Elə isə yalnız Ona ibadət edin! Düz yol da budur".*
*Sonra firqələrin arasında ziddiyyət düşdü. Böyük günü görəcək kafirlərin vay halına!*
*Onlar Bizim hüzurumuza gələcəkləri gün necə yaxşı eşidəcək, necə də yaxşı görəcəklər! Lakin zalımlar bu gün açıq-aydın azğınlıq içindədirlər.*
*Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər və iman gətirmirlər. Şübhəsiz ki, yerə və onun üstündə qalanlara*

*təkcə biz sahib çıxacağıq. Onların qayıdışı Bizə olacaqdır* ". Mirmehdi səsinə qəribə cingiltilər qatıb sonuncu cümləni də bitirdi. Başını sağa-sola fırlayıb dodaqaltı pıçıldadı.
*"Hər şey aydındır... Məryəmi Allah müqəddəslərin siyahısına daxil edib... Dünyaya sonuncu göndərəcəyi qız sizinkidir...O, qiyamətin xəbərçisi, bəşəriyyətin xilaskarı olacaq... Hamilədir. Mən sürəni oxuduqca mənə həqiqəti deyirlər*",- dedi.
Təəccübləndim. Qəlbimdə günahdan qorxu hissi duyan adamlarınkı kimi həyəcan baş qaldırdı. Tanrıya qarşı üzümün kölgəli olduğunu düşündüm. Utancdan yanaqlarım qızardı. Ancaq bunları özümə də etiraf etmədim. Fələyin oyunu niyə belə gətirmişdi? Tanrı dünya adlı tamaşanın sonuncu pərdəsində, sonuncu aktyorlar kimi bizi seçmişdi. Bu oyunu poza bilərəmmi? Səhnədən düşüb tamaşaçı salonuna keçə bilərəmmi? Və səhnədən əlimdəki çipsi dilimlərini, yarısı içilmiş Kolanı aktyorlara ata bilərəmmi?
...soruşdum...
...Sual dolu gözlərimi ona dikdim...

*Qiyamətin baş verməməsi üçün nə edə bilərəm?*
Onun narahat olduğunu duydum.
- *Məgər siz xilas olmaq istəmirsiniz?*
*- Bəs siz? Bu qədər günah içində cənnətə düşəcəyinizi hesab edirsiniz?*
*- Əlbəttə ki, yox.*
...bir müddət ikimiz də sakitcə dayandıq...
...həyətdə it hürüşməsi eşidilirdi...
...otağın küncündəki qəfəsdə bayquş uladı...
...qorxdum...
...bayquşun ulartısı tüklərimi biz-biz etdi...

*- Onu abort etdirmək istədim, amma Məryəm istəmir. Həkimlər də buraxmırdılar... Xəstəxanadan zorla qaçırmışam.*
*- Elə isə bizim yollarla getmək lazımdır.*
*- Yəni?*
*- Sən mənim dediklərimi elə. Sonrasına qarışma.*

Onların dediklərini elədim.
...Xəzərə üzərinə dualar oxunmuş yeddi kilidlənmiş qıfıl atdım...
...Zaurun alt paltarına qurd yağı sürtdüm...
...Məryəm yatanda ərəbcə yazılı, üstünə ilblis duası oxunmuş pitiyi onun paltarına tikdim...
...İblisə uydum...

...Şeytana tapındım...
...Aldandım...
...Allahın gözündən düşdüm...
Keçmişi görmək, cinlərinin vasitəsi ilə Tanrının qeydlərinə baxmaq qabiliyyəti olsa da, Mirmehdi heç vaxt Onun fikrini dəyişə bilmədi.
...Allahı yolundan döndərə bilmədi...
Son zamanalar STV-də "Sirr qapısı" filminə baxırdım. Həqiqəti anladım. Yeganə çıxış yolumun Allahda olduğunu başa düşdüm. Ona sığındım. Bağışlanmaq üçün qapısını döydüm. Ruhumun bəsirətini qurban verdim. Qurbanım qəbul olunmadı. Qapı açılmadı.
Tanrı mənim qızımı seçmişdi. Bəlkə məni də Məryəm üçün seçmişdilər? Bəlkə mən də Onun "Müqəddəslər və əzizlər" adlı kitabında hansısa səhifədə, hansısa sətirdəyəm... Əzizəmmi? Seçilmişəmmi? Fərqliyəmmi? Təmizəmmi? Bilmirəm.
Namaz qıldım. "Təzə Pir" məsçidinə gedib saatlarla Allaha yalvardım. Qəlbim nurla doldu. Ancaq onun evində də aldandım. Məni burada da iblisə xidmət etməyə məcbur etdilər.
Nə olardı, Tanrıya rüşvət vermədən də ondan nə isə istəməyin mümkün olduğunu anlasaydım.
...olmadı...
...alınmadı...
..bacarmadım...
Öncə qızıllarımı dini ocaqlara payladım sonra üzərində Buta şəkli təsvir olunmuş əldə toxunma xalçanı məsçidə bağışladım.
Bu məni bəladan qurtarmağım üçün Tanrıya utanmazcasına verdiyim rüşvət idimi?
...düşüncəsizcəsinə...
...gözü və bəsirəti bağlı-bağlı...
Uzaq qohumlarımın birinin evində yasda idim.
Ağlaşma... Yerə döşənmiş xalçaların üstündə, bir-birinin yanına oturmuş qadınların pıçıltısı...
...dedi-qodu və mollanının ərəb dilində heç kimin başa düşmədiyi mərsiyəsi...
Molla "Fatihə sürəsi"ni oxudu. Hamımız candərdi salavat çəkdik. Ardınca da ağlamağı yamsılaya-yamsılaya dəfələrlə danışdığı dini hekayətlərə başladı. Öncə İmam Hüseyn müsibətlərindən, onun qalxdığı şəhidlik zirvəsindən danışdı. Sonra isə kişilərin böyüklüyündən və peyğəmbərin arvadlarının paklığından, təmizliyindən uzun-uzadı tərif yağdırdı.
Bütün bu əhvalatlar kimə maraqlı idi?..
...heç kimə... Kimə lazım idi? Heç kimə?!. Nə bilim.
Hamı bir-birilə pıçıldaşıb başqa məsələni aydınlaşdırmağa çalışırdı. Mərhumun

şərab sexləri hansı oğluna çatacaq? Kişi ölməmişdən əvvəl bütün sexləri qızına vəsiyyət etsə də, buna məhəl qoyan yox idi. Beş oğul analarını öz tərəflərinə çəkib sexi satmaq, pulları isə bölüşdürmək istəyirdilər.
Ortalıqdan süfrəni yığışdırdılar və həmin dəhşətli hadisə baş verdi. Mən gördüklərim qarşısında çaşıb qalmışdım. Bu nə idi? Məsçidə bağışladığım xalça otağın düz ortasına sərilmişdi. Onu elə həmin dəqiqə də tanıdım.
...üzərindəki butalar...
... kənarlarındakı naxışlar...
...bir-birinin içinə keçib bütövlük yaradan şəbəkə...
...və yazı: "1979-cu il. Təhminəmə hədiyyə...".
Beynimdəki hansısa qırışların arasında ilişib qalmış ağ-qara rəngli, bulanıq görüntülər canlandı.
...Anamı xatırladım. Uşaqlığımı, atamla bu xalçanın üstündə oturduğumuz və onun köməyi ilə kibrit dənələrindən ev düzəltdiyim günləri...
Bunu anam rayonda yaşayan qohumlarımıza toxutdurmuşdu. Əsl Qarabağ xalçası idi.
*- Mollanın arvadından almışam kreditlə, 6 aya borcumu qaytarmalıyam. Ayda 30 manat,-* deyə, mərhumun gəlini qayınatasının ölümünü həməncə dəqiqə unudub xalçanı ələ keçirməyinin yollarından danışırdı.
Evə qayıdanda Zaurun sözləri yadıma düşdü: *"Şərəfsizlər... Nəzirlərin hesabına özlərinə hərəmxana tikirlər*".
Mən niyə yalnız Tanrıya iman gətirmədim? Niyə dini ocaqlardan, küt mollalardan, *"Zəkat vermək müstəhəbdir. Mütləq zəkat verin*" sözlərini eşidəndə əlimdə olan bütün dəyərli şeyləri payladım.
...günaha batdım...
...çirkaba bulandım...
...bütlərə ibadət etdim...
...Tanrı əvvəzinə daşı-torpağı öpdüm...

Qış idi. Çovğundu. Külək yerə düşən qarı göyə sovururdu. Ev soyuq idi. Zaurla yatağımıza uzanıb bir-birmizi isitməyə çalışırdıq. Zaur həmişəki kimi çarəsiz, əlacsız idi.
*"Qiyamətin xəbərçisi. Yox bir, dünyanın xilaskarı",-* deyə, Merini ələ salırdı.
Bəzən gecənin yarısı ayılanda onun siqaretini sümürə-sümürə nə isə düşündüyünü görürdüm. Bir neçə dəfə xısın-xısın ağladığını da eşitmişəm.Gözlərimi açmamışam. Kirpiklərimi bir-birinə zilləyib sükunəti, zaurun qulaqbartırıcı sükunətini dinləmişəm.
...o, bədbəxt idi...
Səhərə yaxın , pəncərəyə yığışmış qar dənələrindən buludların arasına boylanan günəş şualarını görmək olmurdu. Zaur dik atıldı. Gözlərini

ovuşdurdu.
*- Nə qəribə yuxuydu*.
*- Bismillah*!
Əlini tutdum. Ovuşdurdum.
*- Təhminə, biz nə vaxt xoşbəxt olacağıq?*
*- Hər şey düzələcək. Narahat olma. Allah böyükdür.*
*- Yazıq Sara xatun,* – deyə başını yastığına qoydu, yuxusunu danışdı:
*- Topxana meşəsində Sara xatun. Qucağında da İsmayıl. Balaca qundaqda körpədir... Qar da dizəcən. Gördüm Sara xatun qaçır. Ağlayırdı. Birdən dayandı. İsmayıl da ağlayır... Gördüm, İsmayıl deyir ki, Ana, öldür özünü. Sara xatun da qayıdıb pıçıltıyla deyir : "Azadlıq olan yerdə əsarət kimə lazımdır?"*
Mən güldüm...
*"Əşi, sən də bu şeyləri o qədər fikirləşirsən ki, axırda gəlib yuxuna girirlər".*
*"Eh! Tatuş. Mən bilirəm ki, onlar necə əzab çəkirlər. Utanıram..."*
*"Hər şey düzələcək... Bir az uzaqlaş bu şeylərdən. Bu boyda dünya durub sən Qarabağı qaytaracaqsan?"* - dedim.
Susdu. Heç nə demədi. Bəlkə, başqa vaxt olsa idi, Zaur Qarabağı xilas etmək üçün hazırladığı planlardan, erməni vəhşiliyindən uzun-uzadı danışardı. İndi isə sakitcə susub sükutu dinlədi... Oysa ki, belə sükunətə çoxdan qərq olmalı idi. Boş və saxta vətənopərvərlik tamaşalarına son qoymalı idi. Kimişcə xarabasında oturub, bir tikə çörəyini qazanmalı idi.
*"Çox çəkirsən bu siqareti, Zaurik!*". Başımı sinəsinə qoydum. Saçlarımdan öpdü. Sevişdik. Mən yenə də onun siqaret və protezlərinin iyindən iyrəndim. Amma hiss etdirmədim. Çünki Zauru sevirdim.
Çayını həmişəki qaydada xortuldada-xortuldada içdi. Məryəm də yeməyini sakitcə yeyirdi. Mən isə xoşbəxt idim. Ərim də, qızım da bir süfrədə idi. Hamımız başımıza gəlmiş faciənin böyüklüyünü anlasaq da susurduq.
*"Sonra Sara xatunu erməni əsgərləri tutdu. Sinəsinin ortasına da xaç damğası vurmuşdular... İsmayılı da öldürdülər",-* deyə Zaur yataq otağında yarımçıq qalmış yuxusunun davamını danışdı.
*"Harda? Sara xatun... Şah İsmayıl Xətai?"* -deyə Məryəm soruşdu. Stəkanına saldığı qəndləri qarışdırmağa başladı.
*"Hə".*
Bu hadisələrdən sonra ilk dəfə idi ki, Məryəm Zauru danışdırırdı. O da cavab verdi. Ancaq sonrası gözlənilməz oldu.
"*Bilirsən niyə Sara xatunu xaçla damğaladılar?"*
*"Niyə?"*
*"Çünki o da sənin kimi özü olmaq istəmirdi. Sara özü olsa idi... Özünü öldürərdi... (Bir anlıq dayandı. Üzərinə Rafael Santinin "Madonnaları" təsvir*

*olunmuş nəlbəkiyə əlindəki fincanı qoydu).*
*Sən də günah işlədin... (Sükut) Bir həftədən sonra gələcəm... Çalış bu evdə səni görməyim... (Ayağa qalxdı. Qapıya doğru getdi. Ayaqqabılarını geyindi... Ana-bala ikimiz də susmuşduq). Çox uzağa getsən sevinərəm..."*- dedi. Qapını örtüb çıxdı.
Məryəm ağladı. Mən də ağladım. İkimiz də çarəsiz idik. Bu nə idi? Mən ən dəyərli varlığımı, bütün həyatımı uğrunda qurban verməyə hazır olduğum birini qapının ardına buraxmalı idim. Unutmalı idim. Atmalı idim. Çirkab dənizinin dibinə yuvarlamalı idim.
Onu kimin seçməyindən, hansı bəşəri xəbəri verməyindən asılı olmayaraq... Çünki Zaurun məqsədləri böyük bir xalqın sonrakı taleyi idi. Məryəm isə zamansız müjdələyirdi qiyaməti. İndi çox tez idi. Heç birimiz qiyamətə hazır deyildik.
...bacarardımmı?..
...bacarırmışam...
...nə qədər əzablı, dözülməz olsa da, mən öz Məryəmimdən ayrıla bilərmişəm...
9 ayın ilahi duyğularla yüklənmiş hamiləlik sancıları, səhərə kimi keçən yuxusuz gecələr boş imiş. Yox imiş.
Məryəm çantasını götürüb dərsə getdi. Zaurun yuxusunu düşündüm. Baxılmaqdan tiftiklənmiş "Yuxu yozmaları" kitabını açıb, xaç axtardım...
...Tapmadım..
Kitabı bağladım. Televizoru işə saldım. "2012" filmi gedirdi. Mayaların məbədi dağıldı. Kəbə isə dağılmadı... Niyə?
Durdum. Pəncərəyə yaxınlaşdım. Səmaya baxdım. Göy üzünü qara buludlar örtmüşdü. Kədərli külək əsirdi. Uzun müddət gözlərimi boşluğa zilləyib baxdım. Tanrını axtardım.
Tapmadım. Axtardım. Axtardım. Və dodaqaltı pıçıldadım. "Bizə qayıdacaqsanmı?"

## TİTANİKDƏ VAĞZALI SƏDALARI...

*"Roza neçə illərlə saxladığı dəyərli boyunbağını Atlantik okeanına atarkən təkcə boyunbağından yox, həm də məhəbbətindən ayrılmış olmadımı?*
*Və qocalmış vücudun yaddaşında qalan kiçik eşq macərası "Titanik" adlı filmə çevriləndən sonra adiləşmədimi?*
*Bütün dünya, anlayışlar, məntiq və mövcudluq bulanıq deyilmi?*
*Hər şey qeyri-səlis məntiqdəki kimidir...*
*Qeyri-səlis məntiq isə "Titanik" gəmisində "Vağzalı" sədaları eşitmək qədər..."*

(Lütfizadənin qeydlərindən...)

Onunla gəmi yola düşdükdən 4 saat sonra tanış olduq. Darıxırdım. Göyərtəyə çıxdım. Okeanın ortasında üzürdük. Əfsanəvi "Titanik" gəmisində. Onu əvvəllər də sevirdim. Ancaq belə yox...
Dordan asılmış bayrağın bir üzündə Amerika, İngiltərə bayrağı, bu biri üzündə isə Azərbaycan bayrağı var idi. Ən qəribəsi o idi ki, ay-ulduz yerinə buta təsvir olunmuşdu. Butanı Titanikin hər yerindən görmək olardı.
"*Bağışlayın. Sizin portretinizi çəkə bilərəm?*" – Di Kaprio mənə yaxınlaşdı.
"*Ha, ha, ha... həyatım boyu Leanardo da Vinçi ilə qarşılağacağımı ağlıma gətirməzdim".*
Atlantik okeanının dəli rüzgarları onun sarı saçlarını dağıtdı. Gülümsədi.
*"Mən isə Mona Lizanı real həyatda görəcəyimi ağlıma gətirməzdim"*- dedi.
Otağımda idik. Mən lüt-üryan soyunub uzanmışdım. O, zəndlə vücuduma baxırdı. Molbertin üzərinə yerləşdirdiyi vatmanda əzalarımı çəkirdi. Otaq isti idi. Bir neçə saat eyni vəziyyətdə qalmaqdan yoruldum. Yanımda oturdu.
...öpüşdük...
...dəlicəsinə sevişdik...
...onun olmaq, onun bir parçasına çevrilmək xoşbəxtlik idi.
*"Bilirsən, hamiləyəm*",- dedim.
Susdu. Çəkdiyi rəsmləri mənə göstərməyə başladı.
"*Bax... Sinəsinə xaç təsviri damğalanmış qadın. Gözlərinin dərinliyini görürsən? "*
...görməzmiydim...
...ayağında toxunma corabları...
...başında yırtılmış kəlağayı...
...gözlərindəki əzab...
...Qarabağ dağlarını görmüş baxışlar...
... və utanc...
... fonda bəmbəyaz qar üzərinə düşmüş qan ləkələri...
...iztirabdan sıxılmış qadın əlindəki bir ovuc torpaq...

*"Hə, kədərlidir..."*
*"Faciəvidir..."*- dedi.
Alçaldılmağın belə əzabverici olduğunu bilmirdim. O qadın kimdir? Görəsən, sevgilisini görmək üçün çiynindəki su səhəngini "İsa bulağı"na gətirən

qızlardan idimi? Hansı küçədə yaşamışdı? Hansı erməni onu bu cür ləkələmişdi? Niyə? Niyə İsanın asılıb müqəddəsliyə qovuşduğu çarmıx belə gözəl qadını alçaltmaq üçün istifadə olunmuşdu? Niyə mənim əbədiyyətə qədər sevəcəyim İsa və onun çarmıxını şərəfsiz ermənilər öz rəzilliklərinin aləti edirlər?
Rəsm məni utandırdı. Kövrəldim və otağımdan çıxdıq. Atlantik okeanın ənginliyinə doğru dodaqaltı dilləndim: "*Müqəddəs ata, izn vermə ki, sənin böyüklüyünə belə ləkə yaxsınlar... Sən o qarabağlı qadının əsirlikdə daha da alçalmasına izn vermə. Amin".*
Sonra... sonrakı görüşlərimizin birində növbəti eskizləri göstərdi.
"*Bu isə balaca körpədir. Zorlanmış üç yaşlı qızcığaz",-* dedi.
...yenə aaşağılanmaq duyğusu...
Atlantik okeanın səssizliyindən qopub gələn qəribə bir uğultu mənim ruhuma işgəncə verirdi.
...qurumuş dodaqları...
...yırtılmış əlbisəsi...
...əsil azərbaycanlıda ola biləcək saflıq, paklıq...
Bəs bu kim idi? Bəs bu balaca qızcığaz nə etmişdi? Heç, sadəcə evini talana gələn ermənidən qaçmağa çalışan dul Nailənin yeganə ümidi idi. Elə bir ümid ki, onu bu dünyada yaşamaq üçün saxlayan ən vacib varlıq idi.
...yenə utandım...
...qəhərdən boğulacaqdım...
...niyə boğulmadım?..
...niyə hamımızı bu utanc qəhəri boğub öldürmədi?..
Dondum. Gözlərim açıldı. Atlantik okeanın dərinliyindən gələn soyuq külək üzümə vurdu. Məni keyləşdirdi. Bu rəsmlərdən əzab çəkdim.
*"Bəs mənim şəklim hanı?"-* dedim.
*"Hazır olanda görəcəksən",-* dedi. Qucaqlaşdıq. Məni nə qədər sevdiyini deyirdi.
*"Kəpənəklər doğacam".*
*"Mənim kəpənəklərimi*?"- dedi
Heç vaxt unutmadığım səhnə. Gücümüz çatdığı qədər tüpürdük. O, məndən uzağa tüpürürdü.
Atlantik okeanının duzlu sularına qarışan ağız seliklərimiz...
...mən dünyanın əxlaqsızlığına...
...erməninin vəhşiliyinə...
...müqəddəs xaça etdiyi küfrə tüpürürdüm...
...bəs Di Kaprio nəyə tüpürüdü?
*"Əylənmək istəyirsən?.. Rəqs etmək... gülmək.. yaşamaq..."-* dedi. Əlimdən tutdu. Gəminin üçüncü sinif adamlar üçün nəzərdə tutulmuş hissəsinə apardı.

...uzun hörükləri döşlərinin üzərinə salınmış qadınlar...
...ətəkləri zərdən toxunmuş şəbəkə naxışlar...
...üzərində buta təsviri olan araqçın...
...kəmərinə xəncər keçirilmiş, buxara papaqlı, vüqarlı kişilər...
...milli rəqslər...
Qadın samovar qalayır, armudu stəkanlarda limonlu çay paylanır. 40 incə belli qız və Burla xatun gözümə dəyir. Azərbaycanlı qadın necə də əvəzsiz imiş... Bu zirzəmini belə nura qərq edən Türk qadının qəlbindəki ailəcanlılıq və ruhundakı müqəddəslik deyilmi?
"Titanik"də toy var. "Vağzalı" havası səslənir... Bəylə gəlin meydana daxil olur. Sonra "Tərəkəmə" rəqsi oynanılır. Əsl milli toy. Tarın səsi adamı valeh edir. Mən bu cür səhnələri ya "Novruz şənlikləri"ndə görmüşdüm, ya da "Dədə Qorqud" filmində.
Di Kaprio ilə milli rəqsdən bir neçəsini oynadıq.
Əlində saz ağ saçlı, ağ saqqalı nurani aşıq məclisə daxil oldu. Dastan bağladı. "Aşıq Qərib", "Tahir və Zöhrab", "Leyli və Məcnun"... içində iztirablarla dolu məhəbbət yolunun təsviri olan eşq dastanları. Onların ardınca da "İlham və Fərizə" dastanı oxundu.
...bu eşq dastanı deyildi...
..qəhrəmanlıq, azadlıq dastanı idi...
...şanlı keçmişi olan, zamanla kiçilmiş, paralanmış bir xalqın Qafqaz dağlarının sərt soyuğuna hayqırtısının abidəsi...
...şəhid olmuş İlham və xalqının tapdanmağını , alçaldılmağını özünə sığışdıra bilməyən bir qızın intiharı...
*"Leo, xoşbəxtsən?"* deyirəm.
Muğam oxuyanları göstərir. "*Xoşbəxtlik bu səsdir. Qulaq as..."-* deyir. Bülbüldür. Səsinin qalxdığı zirvələri görmək olmur. "İsa bulağı"nın şırıltısı kimi adamı bilmədiyi bir keçmişə aparır.
*"Üşüyürsən*?"- deyir
"*Yox*" - deyirəm. Ona sığınıram. İkimiz də ucsuz-bucaqsız okeana baxırıq.
*"Kəpənəklər... Niyə kəpənəklər? Niyə bircə gün ömrü olan kəpənəklər"- deyir.*
*"Bilmirəm. O belə istədi ".*
*"Müqəddəs İsa... Sənə şükürlər olsun*"- deyir. Xaç çəkir.
"*İsa qiyaməti xəbər vermək üçün kəpənək kimi doğulur... Tanrı bizi xilas etmək üçün niyə bizdən birini yox, gözəlliyindən başqa heç bir şeyi olmayan kəpənəkləri seçdi?"-* deyir.
*"Leo, qorxuram*" deyirəm.
"*Niyə*?"
"*Birdən kəpənəklər öldü. Birdən onları öldürdülər... Onda? Onda heç*

*nədən xəbərsiz öləcəyik. Qiyamət haqqında heç nə bilməyəcəyik".*
*"Tanrı onları qoruyacaq*",- deyir. Oturduğu yerdən dik atılır. Ayaqlarıma qapanır.

*"Müqəddəs Məryəm, Tanrıya de məni bağışlasın. Bu gəmi ilə gəlmək üçün qumarda hiylə işlətdim... Lizanı sevmədiyim halda ona ümid verdim... Hamilə buraxdım",* deyirdi. Güldüm. Ayağa qaldırdım.
Əl-ələ uzun müddət gəmidə gəzişdik. Gəmi aysberqə toxundu. Zədələndi. Əfsanəvi "Titanik" batırdı. Hamı pərən-pərən düşmüşdü. İnsanlar nə edəcəklərini, hara gedəcəklərini bilmirdilər.
Musiqiçilər gəminin batmağına fikir vermədən ifalarını davam etdirirdilər. Tarzən, kamançı və balabançalan birlikdə qəribə bir musiqi səsləndirirdi. Ağ saçlı nurani qoca aşıq canını xilas etməyə çalışanlara Nəsimidən qəzəllər oxuyurdu:
"*Məndə sığar iki cahan*
*Mən bu cahana sığmazam".*

Gəminin bir hissəsi adamlarla birlikdə batdı. Okeanın üzünə səpələnmiş insanlar bağırırdı. Atlantik okeanın sərt soyuğuna dözməyə çalışırdlar.
...müqəddəs ata bizi qurtar...
...müqəddəs İsa kömək et...
...ey şamanların ruhu, mənə əl uzat...
...ey Hz.Məhəmməd, Tanrıdan bağışlanmamızı dilə...
...batanlardan kimsə soyuq okeanın üzərinə zəif işıq salan aya doğru çevrildi və Boz qurd kimi ulamağa başladı..
Balaca bir taxta parçasının üstündəyəm. Leonun əlindən yapışmışam. Üşüyür... tir-tir əsirdi.
- *Kəpənəklər hamımızı xilas edəcək,-* dedi.
- *Edəcək Leo. Tanrı hamımızı bağışlayacaq.*
Əlimdən öpdü. "*Məryəm, xoşbəxtəm*",- dedi. "Qarabağ şikəstəsi"ni zümzümə etməyə başladıq. Soyuq bütün bədənimizi keyləşdirdi. Bir anlıq huşumu itirdim. Özümə gələndə Leo oxumurdu. Donmuşdu...
"*Leo...Leo..."* - çağırdım. Cavab vermədi.
...dodaqlarından öpdüm....
...buz kimi idi...
...əllərini buraxdım...
...o, əbədiyyətə qədər okeanın dərinliyində uyumaq üçün batdı...
...ağladım...
Dodaqaltı "Sarı gəlin"i zümzümə elədim.
*"Saçın ucun hörməzlər*

*Gülü sulu dərməzlər...*
*Gedin deyin xan çobana*
*Gəlməsin bu yay Muğana*
*Muğan batıbdı al qana..."*
Birdən yuxudan dik atıldım. Di Kaprionun otağımdakı rəsminə baxdım. Gülümsədim...
"*Nə gözəl yuxuydu*",- dedim. Məni oyadan telefonumun səsi idi. SMS gəlmişdi.

*"Hi. My dear girl. I miss for you. Dəli qız, necəsən? Mən artıq Los - Ancelsdəyəm. Meri, buralar superdir. Bu yeni nömrəmdir. Arada yaz. Qiyamət gününü xəbər verərsən ☺".*

Yatağımdan qalxdım. Paltarımı geyinib dərsə yolandım. Beynimdə atamın sözləri fırlanırdı: *"Sara xatun özü ola bilmədi... evdən get...bir həftə vaxtın var".* Dəli olmuşdum.
Evə qayıdanda anam yox idi. Sonra gəldi. Hansısa məsçidə nəzir verməyə getmişdi. Niyə Tanrının işinə qarışmağa çalışır ki? Məgər nəyi isə dəyişə bilər?
...getməliydim...
...bilirdim...
Anamın öz yazdığı taleyə müdaxilə edirdim. Atam isə mənim üzümdən "Qarabağ"ı geri ala bilməyəcəkdi. Azərbaycanı dünyaya tanıda bilməyəcəkdi. 3-cü sinif adamlar üçün nəzərdə tutulan kafelərdə, veteranlar klubunda siyasi qiybət qılmaqdan başqa bir işə yaramayan bu adam hansı torpağı ala bilərdi? Hansı ölkəni xilas edə bilərdi?
Onlar mənə demişdilər. Seçilmişdim. Bəzi anlarda qulağımda səslənən Quran ayələri, Tanrının mənə verdiyi məsləhətlər bəs edirdi.
Sancılarım başlamışdı. Qarnımda bir-birinə qarışan qəribə ağrılar hiss edirdim. Onların doğulacağı gün yaxınlaşdıqca qorxurdum.
Həmin gün hava isti idi. İsti şualar otağıma dolurdu. Gözlərimi açanda divarda İsanın iztirablı sifətini gördüm. Gözlərində isə xoşbəxtlik qığılcımları vardı. Çarpayımın kənarında anam oturmuşdu. Ağlayırdı.
*"Getməsilən",-* dedi.
Sakitcə yanağıma axan göz yaşının saçlarıma necə qarışdığını duydum.
"*Bağışla, Meri, qurban olum, Meri, məni bağışla... mən... mən sənə yaxşı ana ola bilmədim",-* dedi. Qucaqlaşdıq və ağladıq. Həmin an,anamı tanıdım. Rəzillik və...
*"Başqa çarəmiz yoxdu. Səni saxlaya bilmərik... bağışla bizi... Allah köməyin olsun*",- dedi.

***

Evdən çıxıb getmişdi. Mənim evi tərk etməyimi görmək istəmirdi.
Telefonumda Fridrix Şopenin ən sevdiyim etüdü səsləndi…
“Mi- bemor minor”un  məndə oyatdığı duyğular izah olunmazdır.
Bu tənhalıq hissi kimi, süstlük və qarışıq bir hissdir.

To be over...

*Suallardan birinə*
*bir cavab verən lazımdır axı,*
*bu yollardan heç olmasa birinin*
*hara getdiyini deyən.*
*Axı bu meynəliklərdə azıb qalana*
*bir kəs bir salxım üzüm verib,*
*ən yaxın təpənin yerini göstərməlidir,*
*Göstərməlidir ki, heç olmasa,*
*o təpənin üstündən*
*başqa bir təpəyə qədər görəsən*
*nə var, nə yox dünyada.*
*Və biləsən ovsunçunun evi harda,*
*yaraya məlhəm qoyanın evi hardadır...*
*Bir kəndə elə-belə əli boş getmək olmaz,*
*gərək bir kəndə gələndə*
*başqa bir kəndin adını verəsən.*
*Belə olmaz, olmaz vallah,*
*Yel kimi kimsəsiz, yel kimi köksüz.*
*(Vaqif Səmədoğlunun pıçıltıları)*

Min illərin ölüm səhnəsi; otağı ağuşuna almış sakitlik, bir küncdə göz yaşını ovuclarına axıdan insan... Necə də kədərli sonluqdur.
Kimsə əbədi xoşbəxtlik dediyimiz dünyaya gedir. O dünyanın hara və necə olmasının nə fərqi? Həqiqətənmi, can üstə olan adam üçün Tanrı cənnətdən önəmlidir?
Bilmirəm...
İnanmıram...
...və qopub getməkdir ölüm.Tez bir zamanda unudulmaq, xatırlanmamaqdır. Bilinməzlikdə, boşluqda, var olmayanda yaşamaqdır. Mən də boşluğun bir parçasına çevrildim. Dərk olunmazlıqda yaşadım.
Bunun adı İlahi məqam imiş...
Bunun adı Tanrı dərgahı imiş...
Hamımızın nifrət etdiyi anlar mənə də əzab verdi.
Xatırlayarkən əzab çəkdiyimiz, utandığımız, qorxduğumuz, üstünə qırmızı lent bağlayıb, qarşısına iki qərənfil qoyduğumuz anlar...
Orada kədər olur.
...göz yaşı...
...qopuqluq...
...sınıqlıq...
Və içində sevginin kədərə qarışdığı izah olumaz ayrılıqlar. Bu ayrılıqlar insan yaddaşına öz qara rəngi ilə, ürək sıxıntısı ilə elə işləyir ki, əsrlər keçsə də unudulmur. Hər zaman onun xiffətini çəkirik.
Bayıl qəsəbəsi, Əsarət prospekti, 666 ünvanında keçən ömrüm. Bu ömürdə uçurumlarla asfalt döşənmiş yollar bir-birini əvəz edirdi. Və xatirələrim... Kiçik ömrümün xatırlandıqca bitməyən xatirələri qaldı geridə. Kimlər yoxdu?! Dünyanın xilaskarları, məşhur ulduzlar, öz halında yaşayan adamlar, Tanrını görmək üçün hər cür iztiraba tab gətirənlər, Allahı inkar edənlər, dünyanı hisslərinə görə yaşayanlar və yüzlərlə səhifəyə yerləşdirməsi imkansız olan həyat tarxiçələri...
...və uydurulmuş həyatlar.Virtual dünyalar.

Sinif yoldaşım Ella da bu virtual dünyalardan birində yaşayırdı. O, öz

ailəsindən imtina edib, internetdə özünə yeni ailə yığmışdı.

“MSN family” deyirdi Ella yeni ailəsi haqqında. Anası İngiltərədə tək yaşayırmış. Hansısa kanalda aparıcı işləyirdi. Ən əsası isə Ellanın sevgilisi ilə internetdə “virtual seks”lə məşğul olmağına icazə verirdi.

“Meri,  o belə şeylərə normal baxır. Yoxsa Fatma (anasını adı ilə deyirdi) eşitsəydi ki, mən öz sevgilimlə yazışıram, axşamacan danışmaqdan çənəsi çıxardı”.
Ellanın atası fransızdır. Qardaşı isə rus. Moskvada yaşayır. Rokerdi. “HEAVY ROCK”la məşğul olur.
“Fatmanın oğlu mənə imkan verməzdi kompüteri işlədim”,- deyirdi, Ella.
Hər gün böyük tənəffüslər vaxtı fransız atasının aldığı yeni maşından, anasının tv-proqramlarından və sevgilisi ilə skyp-dakı söhbətlərindən danışardı. Ellanı uydurduğu ailəsi xoşbəxt edirdi.
Bir gün Ellanı kimsə şirin yuxusundan oyatdı. Msn adresinə hansısa çoxbilmiş virus salıb bütün bilgiləri və əlaqələri silmişdi. Həmin gün Ella ağlaya-ağlaya gəlib məktəbə səs salmışdı ki, ailəsini itirib. Yazıq qız, dərsin sonuna kimi uydurduğu ailəsi üçün ağladı və proqramçı axtardı. Ancaq çarə tapılmadı.
Mən? Mənim ailəm? Onlar ki, uydurulmamışdı. Atam ki bir virusla yox olan, öz istəyindən dönən deyildi.
Bəlkə fikrini dəyişərdi? Hansı virusla?
Yox. Onlar həqiqət idilər. Vardılar. Və bu varlıq, bu birlik hər birimizə əzab verirdi. Çünki, bizim yollarımız ayrı-ayrıydı.
Bəs mənim ailəm niyə virtual deyildi? Atam hansısa tanımadığım bir ölkədə, özüyçün yaşayan internet atası deyildi? O, həqiqət idi? Hə. Əgər o, uydurulmuş olsaydı, hər dəfə çatda söhbətləşəndə soruşardı; “Meri, kəpənəklər necədi? Qiyamət nə vaxt qopacaq?”
...Gerçəkliyə döndüm...
Otağıma yapışdırılmış divar kağızları, şəkillər, bir küncə yığılmış oyuncaqlar və hədiyyələrim... Kövrəldim. Onların yaddaşında ilişib qalan ömrümü xatırladım. Ağladım. Bu göz yaşlarında çarəsizlik və kimsəsizlik qarışıq bir duyğu var idi.
Üzərində bir gözü çıxarılmış pişik balasının təsviri olan günlüyüm.
Varaqlayıram. Eynilə nənəm kimi, rəngli qələmlərlə yazmışam. 9-cü sinifdən bəri yaşadığım günlərin, keçirdiyim hisslərin köçürüldüyü dəftərim.
Birinci səhifəni açıram. İsa ilə tanış olduğum gün... “Büyük Fırat Lahmacun” da oturmuşuq. İlk görüş həyəcanı ikimizdə də var. O, məndən çox həyəcanlıdır... Beynimdə dumanlı xatirələr canlandı.
“*Mən sevirəm”* - gündəliyimin ilk cümləsi belə idi.
*“OK!  Bu gündən sən mənim ən yaxın dostumsan.  İnanıram ki, sənə verdiyim*

*sirlər həmişə sirr kimi qalacaq.*
*Razılaşdıq? Super".*
*Dünən məktəbdə ağ atlı oğlanla qarşılaşdım. İsusla.*
*O, kimdir?*
*Hə. O, mənimlə eyni məktəbdə oxuyur. Maraqlı oğlandır. Həm də, məktəbimizin ən zövqlu geyinənidir. İdmançı stilində geyinir. Onu klassik üslubda az görmüşəm.*
*Biz necə tanış olduq?*
*Ok. My Friend. Hamısını danışıram. Tələsmə. Fizika dərsi idi. Müəllimə deyirdi ki: "yer kürəsində baş verən tektonik hərəkətlər, atmosferin çirklənməsi və s. Hadisələr planeti öz orbitindən uzaqlaşdırıb. Yer kürəsi sürətlə fırlanır... Dünyanın sonu yaxınlaşır... Bütün fiziki qanunlar pozulub..." Onun bədbin çıxışından darıxdım. İcazə alıb çölə çıxdım. Dəhlizdə, pəncərənin qabağında dayanmışdım. Çox fikirli idim. Yerin sürətlə fırlanması məni qoxutdu. Qocalmaqdan, ölümdən qorxurdum. Dünyanın sonunu görmək... Heç nə anlamadan "Son" adlı oyunla hər şeyi bitirmək haqsızlıq idi. İçdən-içə müəlliməni söyür, ona lənətlər yağdırırdım.*
*"Eqoist platinium"un qəribə iyi məktəb dəhlizini dolduranda onu tanıdım. Bu qoxu məşhur idi.*
*"Həyətə elə maraqla baxdın ki..."*
*"Darıxıram.(sükut) Fizikadan bezdim. Dərsdə oturmaq istəmirəm".*
*"Bilirsən, bu gün mənim ad günümdür".*
*"I canguralate"*
*"Thanks. Bəlkə birlikdə şəhərə gedək. Ad günümü tək qeyd etmək istəmirəm".*
*"Ok! No problem",- dedim.Çox sevindi. Gülümsədi. Razılaşdıq. Birlikdə şəhərə getdik. "Büyük Fırat Lahmacun"da oturduq. Elə həyəcanlı idim ki... Xoşbəxtlikdən uçurdum.*
*O, necə adam idi?*
*Utancaq. Hə. Məktəbin bütün qızlarının həsrətlə baxdığı İsus utancaq imiş. Mən onu belə təsəvvür edə bilmirdim. Etiraf etmək üçün iki saat danışdı. İsus danışdı, danışdı, danışdı... Demək istədiyini deyə bilmədi. Mən niyə onun nə demək istədiyini anlaya-anlaya susdum? Ona kömək etmədim. Qadın idim... Susmalıydım? Bəs ömrümün sonuna kimi susmaq məcburiyyətində qalsaydım necə?*
*Salfetin üstünə qırmızı karandaşla yazdı ki, "Meri, mən səni sevirəm. Bu sevginin əbədiyyətə qədər davam etməsini istəyirəm".*
*Mən də həmin cümlənin ardınca yazdım: "Mən də... Bu sevgi sonsuza qədər sürəcək".*
*Dostum, xoşbəxtəm... Xoşbəxtəm...*

*Mənim həyatımda hər şey superdi".*

Gündəliyimi yenə varaqlayıram. Bu dəfə başqa günün geridə qalan, xatirəyə çevrilmiş şəkillərini görürəm.

*"Hİ! Dostum. Necəsən?"*

*Mən? Mən super. Super. Superəm... SEVİRƏM. SEVİRƏM. SEVİRƏM... SEVİLİRƏM... Xoşbəxtəm.*

*Yeni xəbərlər?*

*OK! Bu saat sənə ən son xəbərləri verəcəyəm. Dünən onunla görüşdük. "Malakan bağı"nda oturmuşduq. Ancaq kinolardan danışırdı. Maraqlı, qəribə hekayələr oxuyur. Çox ağıllıdır.*

*"Rock"a qulaq asmağı xoşlayır. Bir də "Qarabağ şikəstəsi"ni sevir. Hərdən atam kimi danışır. Ermənilər bizi belə qırdılar, ruslar millətin başına bu oyunu açdılar.*

*Sabah "Vətən" kinoteatrına gedirik. Sevgilimdə "Rock and Rep" konserti üçün iki bilet var.*

*Ella deyir ki, mən bu konsertə emo kimi geyinib getməliyəm. Dostum sən nə fikirləşirsən?*

*Yox. Mən elə geyinmək istəmirəm. Özüm kimi... necə varamsa, elə.*

*İlk məhəbbət. Necə də qəribə hiss imiş. SEVİN. Hamınız SEVİN. İlahi, qoy bu dünyada ilk öpüşü dadmayan adam qalmasın".*

Ətrafına rəngli qələmlərlə çəkilmiş gülləri olan səhifələr. Varaqlayıram. Başqa bir səhifədə dayanıram. Qara qələmlə yazılıb.

"*Hə... ağlayıram. Çünki, hər şey bitdi. Bizim yollarımız ayrıldı. O, mənim xəbərim olmadan sənədlərini Amerikaya yollayıb. TOFEL imtahanlarından keçsə hər şey bitdi. İsus birdəfəlik çıxıb gedəcək.*

*Anladım. Məni sevmirmiş. OFF!!! Heç nə yazmaq istəmirəm. Çox bədbəxtəm. Niyə belə oldu?"*

İsusla görüşdüyümüz günlər... Məni ilk dəfə "OLD sity" gecə klubuna aparmağı... McDonaldsa keçirdiyimiz çağlar və yüzlərlə xoş xatirə gündəliyi varaqladıqca gözlərimin önündə canlanırdı. Dəftəri bağladım və bir küncə atdım. Otağlarımızı gəzdim. Ailə şəkillərinə baxdım.

"Atamın əlindən tutmuşam. Anam başını atamın çiyninə qoyub. Arxada Leninin heykəli. Heykəl uçurulub..." Şəkilin arxasını çevirirəm. Anam kiril əlifbası ilə bir neçə söz yazıb. "Meri 3 yaşında olanda... "Azadlıq meydanı"nda".

"Ağ-qara foto. Qəribə geyimli adamlar... Kamera, studiya, mikrofon var. Bir neçə kişi və qadın müxtəlif vəziyyətlərdə...

Anamın televiziyada işlədiyi zamanlardan qalan yeganə xatirədir ".

Arxasını çevirirəm. Həmişəki rəvan xəttlə yazılıb: "İş yerində ilk ad günüm".

Anam burada gənc və gözəl görsənir. Yenidən anamın üz cizgilərinə baxıram. Gözləri qayğısız və xoşbəxtdir.

"Şabalıdı rəngin sarı və ağla qarışığından alınmış növbəti foto. Portretdir. Anam təkdir. Bu onun məktəb illərinin rəsmlərindən biridir". Arxasında heç nə yazılmayıb...

"Qotik üslublu çərçivə rəsmi haşiyələyir. "Fujifilm"nın fotosu... Yuxarıdan sağ tərəfdə üç rəngli bayraq dalğalanır. Həmin istiqamətdə sol tərəfdə Gerbin təsviri var. Hər ikisinin ortasında qabaritli şriftlə yazılıb: "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir..."
Fotoda iki əsgər təsvir olunub. Əllərində süpürgələr  var. Rəsmdəkiləri tanımıram. Yəqin, atamın dostlarından birinin oğludur...

"Ağ-qara , əzilmiş, köhnə bir foto. Atamla-anamın toy rəsmlərindəndir. Fotoqrafın 80-ci illərdə öz üslubuna görə hazırladığı kompozisiya. Hamı elə gözəl, pak və maraqlı görsənir ki..." Sağ tərəfdən aşağıda yazılıb: "Leyla foto".

"Ağ-qara rəsm... Məktəbli formasındayam. Saçlarımı arxaya daramışam... Bunu "Şərəf lövhəsi" üçün ikinici sinifdə çəkdirmişəm. Atamın mənimlə fəxr etdiyi ikinci şəkil".
"2000-ci illərin şəkillərindən biri. Üç qız. Arxada məktəb partalarının üzərinə yığılmış Koka-kola, peçenyelər, çay və s... Bir-biri ilə danışan iki sinif yoldaşımız... "Son zəng"dir. Məktəbdən birdəfəlik ayrılmağımı bayram kimi qeyd edirəm.
Həmin günü xatırlayıram - göz yaşı və sevinc...
Rəsmin arxasıda üçümüz də yazmışıq.
"Ella: - Mən həkim olanda bunu otağıma asacağam.
Meri: - Görəsən, bu gündən geriyə fotodan başqa nə qalacaq?
Sevda: - Millət, gəlin, 10 ildən sonra bu sinifdə görüşək".
Nəhayət, sonuncu... Atamın, mənim və anamın, bir də yaxın qohumların təsviri olan sonuncu rəsm.
"Çərçivəyə salınmış rəngli foto. Sağ tərəfdən aşağıda fotoqrafın adı,  telefon nömrəsi... və şadlıq sarayının ünvanı yazılıb.
Əynimdə dekolte əlbisə. Anam saçlarını adəti üzrə arxaya darayıb. Sanki sifətindəki qırışların sayı çoxalıb. Və yorğundur... kədərlidir...
Atam həmişəki bəy ədasında... əynində klassik üslubda əlbisəsi. Əsl Türk kimi məğrur dayanıb. Həmişə fəxr etdiyi türk sərkərdələri kimi..."
Fotonun arxasını çevirirəm. KODAK yazılıb. Başqa heç bir qeyd yoxdur. Qələmi götürüb yazıram. "Meri ilə ən son foto".

Bitdi. Mənim də, ömür qatarımın sonuncu stansiyası gəlib çatdı. Bu dünyada əlvida demədən, ən yaxın dostlarla vidalaşmadan, onları son dəfə görmədən çıxıb gedirəm. Hamını tərk edirəm. Unuduram. Atıram. Hamıdan imtina edirəm.
Nə? Allah gözləyir? Kimi? Məni? NİYƏ?
Hamımızı aldatdılar. Hərəmizə bir cənnət nağılı uydurub ömrümüzü əlimizdən aldılar. Onlar bizi dünya adlı bataqlıqda cənnət nağılları ilə yuxuya verərkən Tanrı çoxdan bu yollardan ötüb keçdi.
..və İlahinin unutduğu bu bataqlıqdan onu geriyə dönməsi üçün kimsə səslədimi? Ey İsa, sən çarmıxa çəkilərkən, Ey Məhəmməd, Məkkədən Mədinəyə köçərkən və ey Nəsimi, dərini zərrə-zərrə soyarlarkən onun səsini eşitdinmi? Öz İlahi nurunu sizin üzərinizə saldımı?
Bəlkə də. Yəqin sizi bağışlayıb belə. Bəs, biz? Bizlər nə edək? 40 incə belli qızı hər gün erməni tərəfindən zorlanan türk insanı neynəsin?
Eden bağında erməni ilə birlikdə hurilərlə kef çəkə bilməyəcəyini, üzü kölgəli olacağını düşünən atam nə etsin?
Ay utana-utana günəşdən aldığı nurunu Bakı adlı şəhərə tökəndə atamın Boz qurd kimi ona doğru uladığını eşitmişəm. Onun “Ey, yeri-göyü yaradan Allah, bizə ayaqlar altına alınmış şərəfimizi və ləyaqətimizi geri qaytarmağa vaxt ver. Biz Eden bağında üzü kölgəli, alçaldılmış məxluqlar kimi gəzmək istəmirik”,- deyib göz yaşı tökdüyünü görmüşəm.
Hamımız cənnətə düşəcəyimizə elə əminik ki... Buna axmaqcasına elə inanmışıq ki...
Telefonumda Rasim Balayevin səsləndirdiyi Quran ayələrini tapdım. Oxutdum. Qulaqcıqları taxıb, çantamı çiynimə atdım. Qapını örtüb evdən birdəfəlik çıxdım. Blokun pillələrini asta-asta endim - hər pilləni və sovet dövründən bu yana boyanmamış, bozarmış divarların rəngini yadımda saxlamağa çalışırmış kimi...
Pillələri endikcə qonşu uşaqları ilə oynadığım “evcik-evcik” oyunlarını, bu oyunların hamısında ana olduğumu xatırlayıram. Çölə çıxanda həyətin aşağısındakı skamyada oturan anamı gördüm. Mənim getməyimi gözləyirdi. Bir anda baxışlarımız toqquşdu. Mənə elə gəldi ki, anam yerindən durub mənə doğru qaçmamaq, məni saxlamamaq üçün özünü “yapon yapışqanı” ilə skamyaya yapışdırb. Gözlərimi ondan çəkdim və dayanacağa doğru irəlilədim..
Hər şeyə sonucu dəfə baxırdım. Adamlara... Evlərə... Dayanacağın bir kənarında yerə atdığı kartonun üzərində oturub dilənən “Qarabağ qaçqını”na... Ağaclara... Quşlara...
Avtobusu gözləmədim.
Nə ilə qarşılaşacaqdım? Bəs, bətnimdəki kəpənəkləri nə gözləyirdi? Sancılarım artırdı. Qəribə bir hiss keçirməyə başladım. Ağırlaşdım. Ürəyim sürətlə

döyünürdü. Başım gicəllənirdi.
...və ölüm. Bir an düşündüm ki, bəlkə də özümü öldürməklə hər şeyə son qoya bilərəm. Bilərəmmi? Bəs, sonra? Ölümdən sonra nə olacaq?
Birdən Allah oldu. Birdən o, imtahan götürmək niyyətinə düşdü.
Beynimdə Allahı qavraya biləcəyim bir forma axtarırdım. Səkinin kənarı ilə yeridikcə qarnımdakı sancılar dözülməz hal alırdı. Və bu doğuş qiyamətin başlanğıcı demək idi.

- Bəlkə, özümü öldürüm?!- bir də düşünürəm. Beləcə qiyaməti təxirə salaram. Bəs, özümü necə öldürüm?

Xəzərə atım?.. Yox! Ən yaxşısı Qız qalasının üstündən özünü atmaqdır. Neçə əsr bundan əvvəl olmuş və tarixə çevrilmiş bir hadisəni yenidən təkrarlayımmı?.
...kim deyə bilərdi ki, kəpənəklər Tanrının müjdəçiləri deyillər?..
...və sonra olacaqları, heç mən də təsəvvür edə bilmirdim...
*"İradəli adamlar həmişə bayrağı qaldırır. İradəsizlər və qorxaqlar isə güllə səsi eşidən kimi analarının tumanının altına girirlər*",- deyərdi atam.
...özünü öldürmək ən böyük iradəsizlik deyilmi?..
*"Küçük. Özünə gəl. Çəkil yoldan*",- deyə ağ Pradonun pəncərəsindən yaşlı bir kişi başını çıxarıb qışqırdı. Yolun ortasında idim. Az qalmışdı ki, ANS tv-dəki "İç xəbər" verlişinə baş vermiş avtomil qəzası ilə bağlı material verim. Yolu tez keçdim. "Georgi armanı" mağazasının qabağında idim. Binaların arasına girdim. "Fantanlar bağı"ndan keçib "Book house"un yanına çatdım.
Rasim Balayev "Bəqərə surəsi"ni oxuyurdu.
" ...*O,zaman Biz sizinlə: "Bir-birinizin qanını tökməyəcəksiniz, bir-birinizi yurdlarınızdan çıxarmayacaqsınız!"– deyə əhd kəsdik. Sonra da siz özünüz şahidlik edərək bu əhdi təsdiqlədiniz.*
*Siz, o kəslərsiniz ki, bir-birinizi öldürürsünüz, özünüzdən olan bir dəstəni öz yurdundan çıxarırsınız, onlara qarşı pislik və düşmənçilik etməkdə bir-birinizə kömək edirsiniz. Onlar əsir tutulub yanınıza gətiriləndə, fidyə verib onları azad edirsiniz. Halbuki onları yurdlarından çıxartmaq sizə haram edilmişdi. Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir..."*

***

Sancılarım dözülməz hal almışdı. Özümə gəlmək üçün bir müddət "Book house"un arxasındakı kilsənin qapısı ağzında oturdum. Çantamı yanıma qoyub qapıya söykəndim. Qapı cırıltı ilə açıldı. İçəri girdim. Qapı örtüldü.
...Kilsənin divarlarında İsa və Məryəm təsvirləri...

... içərini bürüyən buxur iyi...
Bir küncdə oturdum. Rasim Balayev "Bəqərə surəsi"ni qurtarmışdı. "Məryəm" surəsini oxuyurdu. Sancılar qarnımı doğrayırdı. Ayaqlarımın arasından su axmağa başladı. Alt-paltarımı çıxardım. Bir müddət su axdıqdan sonra balaca yumurtalar çölə töküldü.
Kürəyimdə qəribə bir yarılma hiss etdim. Əllərimi belimə sürtdüm. Qanadlarım çıxmışdı. Vücudumda baş verən bu hadisəni anlaya bilmirdim. Qulağıma hardansa səs gəlirdi. *"O səni seçdi... hamımız ondan yarandıq və sonda ona qovuşacağıq",-* deyirdi. Qanadlarımı açdım. Kilsənin tavanına qalxdım. Divardakı rəsmlər pozulmuşdu...
...xaçlar əriyib yerə tökülmüşdü...
...kilsənin tavanını əllərimlə araladım...
...yuxarı, Allahın yanına qalxdım...
...uçdum...
...uçdum...
...Allahı gördüm...
...ona toxundum...
...və yox oldum....

Son.